www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2-3 iyul 2016-cı il Şənbə № 144 (6465) Qiymətı 60 qəpik

Xəbər

**Bakıda məşhur zavodda müəmmalı partlayış; 5 yaralı var**

yazısı səh.2-də

Gündəm

**8-ci kilometrdəki maşın bazarını kim və niyə yandırıb?**



Ticarətçilər hadisəyə görə obyektin sahibini günahlandırırlar

yazısı səh.14-də

**Manatın ucuzlaşmasının qarşısını necə almaq olar?**

yazısı səh.4-də

**Türkiyə terrorla mübarizədə İsraillə əməkdaşlıq edə bilər**

yazısı səh.9-da

**Müxalifət xalqın yanından gedib...**

yazısı səh.7-də

**SOCAR "Palmali"yə 120 milyon dollar ayırdı**

yazısı səh.8-də

**Sorosun mesajlarına müxalifətdən cavab gəldi**

yazısı səh.9-da

**Dollar İkinci Dünya müharibəsindən bu yana hegemonluq edir...**

yazısı səh.10-da

**Terror zamanı özümüzü necə qoruyaq...**

yazısı səh.12-də

**"Avro-2016"da kədərli gecə: sabah onlardan biri olmayacaq...**

yazısı səh.15-də

**Qız üstündə düşən mübahisə bıçaqlanma ilə sona çatdı**

yazısı səh.14-də

**Ramazan ayının 26-cı günü**

İftar 20.31. İmsaq 03.13-dək (QMİ)

26-cı günün duası: "İlahi, bu gün mənim səyimi bəyənilmiş, günahımı bağışlanmış, əməlimi qəbul olunmuş və eybimi örtülmüş qərar ver! Ey eşidənlərin ən gözəl Eşidəni!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Nizamlama prosesində ümidverici gəlişmə

# DÜNYA PAYTAXTLARI QARABAĞ ÜÇÜN HƏRƏKƏTƏ KEÇDİ

Çərçivə sazişi ilə bağlı telefon diplomatiyası da fəallaşıb; ABŞ-ın dövlət katibi Azərbaycan və Ermənistan prezidentlərinə zəng vurdu, sülh çağırışı etdi; Putin və Olland isə telefonda Dağlıq Qarabağdan danışdılar; prezidentlərin görüşləri permanent şəkil ala bilər...



yazısı səh.5-də

## Yəhudi dövlətindən Türkiyə və Azərbaycana böyük jest

"Qaz müharibələri" həlledici mərhələyə adlayır; İsrail TANAP-a qoşulacaq; İran da ona qoşula bilər; "Türk axını" layihəsi isə təzədən gündəmə qayıdır; türk-rus, türk-İsrail barışığı qaz bazarları uğrunda rəqabətə stimul verib...

yazısı səh.8-də



**Xaləddin İsgəndərov iş adamını necə müflis edib...**

yazısı səh.3-də



*Rəhim Qazıyev:*

**"Məni tanımırlar, amma Röyanı, Faiq Ağayevi tanıyırlar"**

yazısı səh.7-də



**Akif Çovdarovun əlaltısı "meydan sulamaqda" davam edir**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016



# Prezident su təchizatının yaxşılaşdırılması üçün 10 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

"APA-Economics"in məlumatına görə, əhalisi 380 min nəfərə yaxın olan 37 şəhər və rayonun 134 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədi ilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 10 milyon manat ayrılsın.

# İraq prezidenti İlham Əliyevdən yardım istədi

**İraq Prezidenti Fuad Məsum Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Axar.az Prezidentin mətbuat xidmətinə istinadən xəbər verir ki, F. Məsum İraq ərazisində yerləşən və Mesopotamiya sivilizasiyasına aid bir neçə abidənin UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilməsinə dəstək göstərilməsini Azərbaycan prezidentindən xahiş edib.**

Bildirilir ki, İraq dövləti 7 ərazinin Ümumdünya irsi siyahısına daxil edilməsi üçün UNESCO-ya müraciət edib. Onlardan Ur, Eridu, Urik abidələrinin mədəni və arxeoloji əhəmiyyətinə, Huveyza bataqlığı, Orta bataqlıqlar və Hammar bataqlıqlarının şərq və qərb hissələrinin əhəmiyyətli təbiətinə və mədəni özünəməxsusluğuna görə həmin siyahıya daxil edilməsi məqsədəuyğun hesab olunur. Bu ərazilər dünya əhəmiyyətli bataqlıq əraziləri, yüzlərlə canlını və bitkini əhatə edən bioloji müxtəlifliyin məskəni olmaqla yanaşı, həm də qədim Şumer sivilizasiyasının müasir qalıqları kimi Ramsar Konvensiyasının siyahısına daxil edilib.

Bildirilib ki, 2016-cı il iyulun 10-20-də İstanbulda Ümumdünya İrsi Komitəsinin 40-cı iclasında həmin abidələrin müvafiq siyahıya daxil edilməsinə dair səsvermə keçiriləcək. Azərbaycanın ümumdünya mədəni irsinin qorunması sahəsində mühüm rolu oynadığı və buna görə də UNESCO Ümumdünya İrsi Komitəsinə üzv seçildiyi vurğulanan müraciətdə qeyd edilib ki, İraq dövləti Azərbaycanın dəstəyini böyük mənəvi yardım, daimi inkişaf və sabitliyin əldə edilməsi, ekstremizm və terrorizmlə mübarizə istiqamətində İraqa göstərilən kömək kimi qiymətləndirir.

# Tovuzda dəhşətli qəza; ana öldü, oğlu ağır yaralandı

**Bakı-Qazax magistral yolunda ölümlə nəticələnən yol-nəqliyyat qəzası baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə yolun Tovuz rayonunun Qovlar şəhəri ərazisindən keçən hissəsində qeydə alınıb. "Hyundai" və "Nissan" markalı avtomobillərin toqquşması nəticəsində iki nəfər ağır xəsarət alıb. Onlar dərhal Tovuz Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.**

1969-cu il təvəllüdlü Almaz Həsənovanı xilas etmək mümkün olmayıb. Onun oğlu, 2000-ci il təvəllüdlü Dulqay Əhmədovun vəziyyətinin ağır olduğu bildirilir.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsində araşdırma aparılır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# ATƏT Tiflisdə regionun və dünyanın problemlərini müzakirə edir

## Bahar Muradova: "Sənədlərdə Ermənistanın təcavüzkarlığı əksini tapmalıdır"

**Tiflisdə ATƏT Parlament Assambleyasının 25-ci yay sessiyası keçirilir. "Report"un Gürcüstan bürosu xəbər verir ki, "Parlament əməkdaşlığının 25 ili: dialoq vasitəsilə etimadı gücləndirərək" mövzusuna həsr olunan sessiya çərçivəsində Daimi komitənin iclası keçirilib. İclasda təşkilatın gündəliyi, maliyyə məsələləri, bəzi sənədlərə dəyişikliklər müzakirə olunub.**



Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova komitə iclasında çıxış edib və ATƏT PA-nın qəbul edəcəyi sənədlərdə Ermənistanın təcavüzkarlığı, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi barədə məsələnin də sənəddə əksini tapmasının vacibliyini vurğulayıb. B.Muradova Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində danışıqların getdiyi bir vaxtda ATƏT PA-nın sənədlərin bu cür məsələlərin əksini tapmasını sülh prosesinə təkan verəcəyini bildirib.

Sonra isə plenar iclas öz işinə başlayıb. Assambleyanın sədri İlka Kavera tədbiri açdıqdan sonra Gürcüstan parlamentinin sədri David Usupaşvili, prezident Georgi Marqvelaşvili, baş nazir Georgti Kvirikaşvili çıxış ediblər. Çıxışlarda təşkilata üzv ölkələrin inkişafında, dünyada, Avropada və Cənubi Qafqazda mövcud olan münaqişələrin həllində ATƏT-in rolu barədə fikirlərini bölüşüblər.

Gürcüstan prezident G.Marqvelaşvili bildirib ki, mövcud problemlərin həllində bütün səylər birləşdirilməlidir: "Bu gün işğal olunmuş ərazilərdə narkotik maddələr yetişdirilir, terror qrupları hazırlanır, radioaktiv maddələrin qanunsuz dövriyyəsi ilə bağlı ciddi təhlükəli vəziyyət yaranır. Münaqişələr həll olunmalı, işğal olunmuş ərazilər azad edilməlidir".

ATƏT-ın fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer çıxışında Cənubi Qafqazdakı münaqişələrə toxunub: "Cənubi Qafqazda digər münaqişələr də var. Bu problemlər həllini tapmalı və regionda sülh təmin olunmalıdır".

AŞPA sədri Pedro Aqramunt çıxışında Türkiyədə baş vermiş terroru pisləyib, bütün qüvvələri terrorizmə qarşı mübarizəyə səsləyib. O, terrorizmə qarşı mübarizədə və işğal olunmuş ərazilərin azad olunmasında, münaqişələrin həllində parlament diplomatiyasının əhəmiyyətini qeyd edib.

Sessiya çərçivəsində ATƏT PA-nın Təhlükəsizlik və siyasi məsələlər, İqtisadi məsələlər, elm, texnika və ətraf mühit, Demokratiya, insan hüquqları və humanitar məsələlər üzrə Ümumi komitələrinin iclasları keçiriləcək, bir sıra qətnamə layihələri müzakirə olunacaq.

İyulun 5-dək davam edəcək sessiyada Azərbaycanı Milli Məclis sədrinin müavini, ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə deputatlar Azay Quliyev, Ülviyyə Ağayeva, Kamran Nəbizadə, Elşad Həsənov və Tahir Mirkişili təmsil edirlər.

# Dolların şənbə-bazar günlərinə olan məzənnəsi açıqlandı

**Növbəti 3 gün üçün manatın məzənnəsi açıqlanıb. Azərbaycan Mərkəzi Bankından Trend-ə verilən məlumata görə, 04.07.2016-cı il tarixinə USD/AZN rəsmi məzənnəsi 1,5425 səviyyəsində müəyyən olunub.**

Qeyd edək ki, iyulun 1-də USD/AZN rəsmi məzənnəsi 1,5425 səviyyəsində olub.

# Bakıda jurnalist bıçaqlanıb

**Jurnalist Fərəməz Novruzoğlu bıçaqlanıb. Musavat.com xəbər verir ki, bu barədə məlumat jurnalist Əvəz Zeynallı tərəfindən facebook səhifəsində yayılıb.**

Əvəz Zeynallının məlumatına görə, iyulun 1-ə keçən gecə saat 02:00 radələrində Fərəməz Novruzoğlu tanımadığı bir gəncin bıçaqlı hücumuna məruz qalıb: "Məlumatda həmin şəxsin niyyətinin Fərəməz Novruzoğlunu öldürmək olduğu bildirilir. Hücumda xəsarət alan jurnalist xəstəxanaya yerləşdirilib".

Ə.Zeynallı ona 2 bıçaq zərbəsi vurulduğunu, zərbələrdən birinin dərinliyinin 20 sm olduğunu qeyd edib.

# 22-ci polis bölməsinin rəisi işdən çıxarıldı

**Bir neçə gün əvvəl Nəsimi Rayon Polis İdarəsinin 22-ci polis bölməsinin rəisi Mahir Məmmədov tutduğu vəzifədən çıxarılıb. Məlumatına görə, bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb. Əmrə əsasən M.Məmmədovun tutduğu posta Zaur Əliyev təyin edilib. M.Məmmədovun sərəncama götürüldüyü bildirilir. Onun 22-ci polis bölməsinin rəisi postundan çıxaırlmasının səbəbi haqda məlumat verilmir.**

❑ E.HÜSEYNOV

# Müəllimlərin elektron ərizə ilə işə qəbuluna başlanıldı

**Azərbaycanda Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə və peşə liseylərinə müddətsiz müqavilə əsasında ixtisaslı müəllim kadrların işə qəbulu üzrə elektron ərizələrin qeydiyyatı başlayıb. APA-nın xəbərinə görə, elektron ərizələrin qəbulu 1-17 iyul tarixlərində aparılacaq.**

Müsabiqədə iştirak etmək istəyən namizədlər iyulun bu müddətdə elektron ərizə ilə miq.edu.az saytında qeydiyyatdan keçməlidirlər.

İşə qəbul üzrə müsabiqədə yalnız ali və orta ixtisas təhsili müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) almış işləməyən şəxslər, eləcə də müəssisələrdə müddətli əmək müqaviləsi ilə işləyən müəllimlər iştirak edə bilərlər.

Müəllimlərin işə qəbulu üzrə müsabiqə 4 mərhələdə (elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə) təşkil edilir. 5.2. Müsabiqənin hər hansı mərhələsində namizədin elektron ərizədəki məlumatları düzgün doldurmadığı müəyyən edilərsə onun nəticələri ləğv edilir. Hər hansı bir səbəbdən göstərilən vaxtda test imtahanında və ya müsahibədə iştirak etməyənlər üçün təkrar imtahan və müsahibə keçirilmir.

Müsabiqənin yekun nəticələrinə əsasən iş yerini dəyişən və işə qəbul olunan müəllimlərin siyahısı Nazirliyin internet saytında yerləşdirilir, müvafiq siyahılar müşayiətedici məktubla aidiyyəti təhsili idarəetmə orqanlarına, Nazirliyin birbaşa tabeliyində olan müəssisələrə göndərilir. Nazirliyin göndərişi əsasında təhsil müəssisəsinin rəhbəri ilə müəllim arasında əmək müqaviləsi bağlanılır və əmrlə rəsmiləşdirilir.

# Yaxın vaxtlarda əfv gözlənilmir

**Yaxın vaxtlarda əfv sərəncamının imzalanacağı barədə məlumatlar həqiqəti əks etdirmir.**

Bu barədə APA-ya Prezident Administrasiyasından məlumat verilib.

Bildirilib ki, yaxın vaxtlarda əfv sərəncamının imzalanması gözlənilmir.

Qeyd edək ki, bəzi mətbuat orqanları İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğluya istinadən Ramazan və ya Qurban Bayramında əfv sərəncamının verilə biləcəyi barədə məlumat yayıb.

# Bakıda zavodda müəmmalı partlayış, yaralılar var

**Nərimanov rayonu, Z.Bünyadov prospektində yerləşən "Baku Steel Company" zavodunda partlayış baş verib.**

ANS PRESS-in məlumatına görə, faktı zavodun işçisi təsdiqləyib. Onun sözlərinə görə, hadisənin hansı səbəbdən baş verdiyi və kimlərin xəsarət alması barədə zavodun saytında məlumat yerləşdiriləcək.

"Report"un məlumatına görə isə partlayış istehsalat qəzası nəticəsində baş verib. Nəticədə beş nəfər xəsarət alıb.

Həmin şəxslər zavodda işləyənlər - Sumqayıt şəhər sakini 1951-ci il təvəllüdlü Ələsgər Ələsgərov, Masallı rayon sakini 1970-ci il təvəllüdlü Elsevər İbadullayev, 1971-ci il təvəllüdlü Məmməd Kərimov, Şabran rayon sakini 1959-cu il təvəllüdlü Nüsrətdin Səfərov və 1982-ci il təvəllüdlü Natiq Salmanovdur. Yaralılar müxtəlif xəsarətlərlə xəstəxanaya yerləşdiriliblər.

Ə.Ələsgərov və E.İbadullayev tibbi yardım aldıqdan sonra evə buraxılıb, digər yaralıların vəziyyəti stabil ağırdır.

Baş verən partlayışla bağlı cinayət işi başlanıb. Faktla bağlı Nərimanov rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 162-ci (əmək mühafizə qaydalarını pozma) maddəsi ilə cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir.

Nəzərə çatdıraq ki, bu zavodda vaxtaşırı partlayışlar baş verir və xəbər maksimum gizlədilir, səbəbləri barədə müfəssəl açıqlamalar verilmir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

**Bakı Ağır Cinayətlər Məhkəməsində 2015-ci il mayın 19-da Binəqədidə çoxmərtəbəli binada baş verən yanğına səbəb olmaqda təqsirli bilinən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam edir. Prosesdə binanın qəsdən yandırılması versiyası ilə yanaşı, binanın yerləşdiyi Binəqədi Rayonun İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun maxinasiyaları da üzə çıxıb.**

# Xaləddin İsgəndərov iş adamını necə müflis edib...

## Binəqədinin icra başçısı binaları üzləyən şirkətin 22 milyon manatını verməməkdə israrlıdır; yanan bina ilə bağlı məhkəmədə sensasion faktlar açılmaqda davam edir

Hazırda təqsirləndirilən şəxs olan “Global Construction” MMC-nin təsisçisi Miryusif Mahmudovun vəkili İlhamə Həsənova çıxışında bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxs adıçəkilən şirkətin təsisçisi olaraq 50 faiz paya sahibdir. Vəkil deyib ki, digər pay sahibi isə Hüseynbala Əlizadədir. Lakin yalnız M.Mahmudov istintaqa cəlb olunub. Vəkil qeyd edib ki, istintaq zamanı təqsirləndirilən şəxslərin qabaqcadan əlbir olaraq bu cinayət əməlini törətdikləri qeyd edilib, lakin bunu sübut edən fakt yoxdur: “Bu şəxslər bir-birini tanımır. Bunlar həbsxanada tanış olublar. Təqsirləndirilən şəxslərin və müvəkkilimin digərləri ilə tanış olmasını sübut edən heç bir fakt cinayət işinin materiallarında göstərilməyib. Biz istintaqa müqavilə təqdim etmişik. Həmin müqavilədə göstərilir ki, binanın üzlənməsi sifarişini Binəqədi Rayon İcra Hakimiyyəti verib. İcra hakimiyyəti istəyib, bu şirkət də yerinə yetirib. ”Global Construction" MMC şirkəti binaların üzlənməsi üçün material istehsal etmir. Bu material Türkiyədən alınır. Şirkət, sadəcə, üzlüklərin binalara vurulması sifarişini yerinə yetirir".

**“Global Construction” MMC-nin təsisçisi Miryusif Mahmudov isə çox maraqlı bir fakt açıqlayıb. Deyib ki, işi görüblər, amma Binəqədi Rayon İcra Hakimiyyəti pulu ödəməkdən imtina edir. Sitat:** “Yanğın baş verən binanın və Binəqədi rayonu ərazisində yerləşən bir neçə binanın üzlənməsinə görə şirkətə ödənilməli olan 22 milyon manatı ala bilmədik”. Bunun nəticəsi olaraq da Miryusif Mahmudov müflisləşib.

Bu halda sahibkar nə etməlidir? İcra hakimiyyəti pulu niyə, hansı əsasla ödəmir?

Bu və digər suallarla Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət etdik. Lakin suallarımıza cavab verən tapılmadı.

**Ekspert Natiq Miri** baş verən olayın Azərbaycanda mülkiyyət hüququna qəsdin bariz göstəricisi olduğunu deyib. Onun sözlərinə görə, bu bir daha sübut edir ki, Azərbaycanda biznesin fəaliyyəti üçün normal mühit yoxdur: “Ölkənin hazırkı iqtisadi çətinliklə üzləşdiyi dövründə xarici investorları Azərbaycana necə dəvət etmək olar? İcra hakimiyyətlərinin bu cür qeyri-hüquqi davranışları əslində inzibati terrorun varlığının göstəricisidir. Heç bir sivil ölkədə bu cür idarəetmə mexanizmləri yoxdur. Necə ola bilər ki, dövlətin müəyyən bir strukturu hər hansı bir müqavilə bağlayır. 22 milyon manatlıq iş gördürür və sonra pulu vermir. İnzibati resurslardan istifadə etməklə təzyiq yolu tutur”.



**N.Miri baş verənlərin məhkəmə sisteminin durumundan irəli gəldiyini də diqqətə çatdırır:** “Bu gün məhkəmələr icra hakimiyyəti orqanlarının bir əlavəsinə çevriliblər. Sahibkarlar bilirlər ki, məhkəmələrə baş vursalar, heç bir halda qərar onların xeyrinə olmayacaq. Bu o demək deyil ki, sahibkar haqsız tələb irəli sürür. Sadəcə, əksər hallarda hakimlər qərarları ədalət prinsiplərinə, Azərbaycan qanunlarına, konstitusiyaya əsaslanıb çıxarmır. Yuxarılardan gələn telefon zəngləri qərar verilməsində müstəsna rol oynayır. Bunu bilməyən yoxdur. Bu onun göstəricisidir ki, ölkədə məhkəmə hakimiyyəti deyilən hakimiyyət yox səviyyəsindədir. Biznes öz haqqını məhkəmədə bərpa edə bilməz. Ona görə də sahibkarlar məhkəmələrdən vaz keçirlər. Bilirlər ki, məhkəmələr onların əleyhinə işləyəcəklər”.

**N.Miri deyir ki, sahibkarın binanı yanğına davamlı olmayan materialdan üzləməsi də Binəqədi Rayon İcra Hakimiyyətinə əsas vermir ki, görülən işə görə pulu ödəməkdən imtina etsin:** “Həmin binanı üzləyən şirkətlə Binəqədi Rayon İcra Hakimiyyəti arasında müqavilə olub. Müqavilədə sifarişçi olan Binəqədi Rayon İcra Hakimiyyəti yazıb ki, bina poliuretanla üzlənməlidir. Podratçı şirkət də üzləyib. 3 il sonra binanın üzlüyü yanıbsa, bu halda yoxlama aparılmalıdır ki, həmin üzlüklər standartlara cavab veribmi? Verməyibsə, bu halda podratçı cəzalandırılmalıdır. Amma bu yenə də o demək deyil ki, sahibkar həmin binaların üzlənməsinə görə, görülən işlərin qarşılığında müqavilə üzrə nəzərdə tutulan pulu almamalıdır. Sahibkarın pulu istənilən halda ödənməlidir. Üstəlik, sahibkar standartlara cavab verməyən materialdan istifadə edibsə, bu halda müvafiq dövlət qurumları hara baxıb?”

❑ **E.HÜSEYNOV**

# 16 nəfərin öldüyü dəhşətli yanğınla bağlı sensasion iddia





## Faciə zamanı ölənlərin sayının rəsmi açıqlamada göstərildiyindən çox olduğunu deyənlər var

**2015-ci il may ayının 19-da Binəqədi rayonunun ərazisində baş verən dəhşətli yanğından 1 ildən çox vaxt ötüb. Lakin baş verən hadisə ilə bağlı səsləndirilən iddialara hər gün biri əlavə olunur.**

Əvvəlcə onu qeyd edək ki, rəsmi rəqəmlərdə 16 nəfərin ölümü, 50 nəfərin xəsarət alması ilə nəticələndiyi deyilən hadisəyə görə həbs olunanların cinayət işi üzrə məhkəmə prosesi hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində davam etdirilir.

Məhkəmə iclaslarında sensasion sayıla biləcək iddialar səsləndirilir. Bunlar arasında yanğının bilərək törədilməsi, hadisəyə görə günahsız şəxslərin həbs edilməsi, Binəqədi Rayon İcra Hakimiyyətinin binaları penoplastla üzləyən şirkətə 22 milyon manat ödəməməsi, vəkillərin ittiham aktında göstərilənlərlə bağlı səsləndirdikləri fikirlər və s. var.

Qeyd etdiyimiz kimi, baş verən hadisəyə görə həbs olunanların məhkəmə prosesində bina sakinləri də zərərçəkən qismində iştirak edir.

Sonuncu məhkəmə prosesindən sonra zərərçəkənlərin bir neçəsi musavat.com-un əməkdaşının suallarını cavablandırıb. Sakinlər yanğından sonra onlara verilən vədlərin tutulmadığını, dəyən ziyanın tam ödənilmədiyini, bu günə qədər müraciət etdikləri dövlət qurumlarından cavab verilmədiyini deyiblər. Sakinlər söhbət zamanı dəhşətli yanğın zamanı açıqlanan rəsmi ölü sayının da şübhəli olduğunu iddia ediblər.

Sakinlər deyir ki, onlara yalnız prezidentin göstərişi ilə birdəfəlik yardım olaraq 20 min manat ödənilib. Bundan əlavə isə yalnız evlərdə mebellər quraşdırılıb. Onlara məişət əşyaları veriləcəyi deyilsə də, bu günə qədər həmin vədə əməl olunmur.





**Sakinlərdən Səbinə Manafova məhkəmə başladıqdan sonra ittiham aktı ilə tanış olduqlarını deyir. Onun sözlərinə görə, ittiham aktında yazılanların əksəriyyəti həqiqəti əks etdirmir:** “İttiham aktı ilə tanış olanda gördük ki, yazılanların çoxu yalandır. Çox savadsız şəkildə yazılıb. İşə ciddi yanaşılmayıb. Məsələn, mənim anamın adı Elviradır, ancaq Safura yazıblar. Mənə dəymiş ziyan 100 min manata yaxındır. Lakin indi ittiham aktında 47 720 manat yazılıb. Qonşuda da eyni məbləğdir. Deyirlər ki, siz belə demisiniz, yazılanları da imzalamısınız. Müstəntiq deyir ki, ekspertlər analiz aparıb və belə nəticəyə gəlinib. Soruşuram ki, hansı ekspert analiz edib? Kim aparıb bu araşdırmanı? Müstəntiq ekspertin kim olduğunu bilmir”.

**Bina sakinləri deyirlər ki, onlara soyuducu, kondisioner, televizor və digər məişət əşyaları veriləcəyini şəxsən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov söyləyib.**

“Bizi nümunə olaraq hazırlanmış evə apardılar. Hər şey hazır idi. Xalça, mebel, bütün əşyalar, hətta çəkələk belə veriləcəyini deyirdilər. Dedilər ki, təkcə çörək alıb evə girəcəksiniz. Biz evə köçəndə, sadəcə, təmir edilmişdi. Bir də mebel var idi. Başqa heç nə yox idi”- deyə sakinlər qeyd edir.

Onlara vəd edilən əşyaların verilmədiyini görən sakinlər yenidən Nazirlər Kabinetinə və BŞİH-ə müraciət ediblər.

**Bina sakinlərindən Afət Əliyeva deyir ki, müraciətlərinə cavab olaraq onlara yeni vədlər verilib:** “Növbəti dəfə bizə dedilər ki, evə köçün, komissiya gəlib baxacaq, nə lazımdırsa veriləcək. Ancaq komissiya gəlmədi. Biz özümüz yenidən müraciət etdik. Bu dəfə də dedilər ki, əşyalarınızı özünüz alın, qəbzlərini saxlayın. Biz ödəyəcəyik. Beləcə, bizi bu günə qədər aldatdılar”.

**Sakinlər evlərinə dəymiş ziyanın məbləğini, yanmış əşyalarının siyahısını araşdırma aparan komissiyaya təqdim etdiklərini deyirlər. Ancaq ittiham aktında məsələ tamamilə fərqli göstərilib.**

“İttiham aktında ümumi olaraq dəymiş ziyan göstərilib. Ancaq nə yanıb, hansı əşyalarımız məhv olub göstərilmir. Yazılan məbləğ isə nəyə əsaslanır, bilinmir. Evlər tamamilə yanıb, ekspertlər necə sübut edir ki, bizə bu qədər ziyan dəyib? Biz evimizdə yanan əşyalarımızın nə olduğunu bir-bir sübut edə bilərik”- deyə sakinlər narazılığını bildirir.

Qarşılaşdıqları çətinliklərlə bağlı dəfələrlə Nazirlər Kabinetinə üz tutan sakinlər baş nazirin müavini Abid Şərifovla heç vaxt görüşə bilməyiblər. Sakinlər artıq şikayətlərinə heç bir dövlət qurumunda baxılmadığını deyirlər.

**Sonda yanğında ölən və xəsarət alanların sayı ilə bağlı sakinlər olduqca maraqlı iddia səsləndiriblər. Onların dediyinə görə, yanğın baş verən binanın 22 mənzilində kirayədə yaşayanlar olub:** “Ancaq ölən və xəsarət alanlar arasında onlardan bir nəfərinin belə adı yoxdur. Rəsmi məlumatlarda göstərilən şəxslərin hamısı daimi qeydiyyatı həmin binada olanlardır. Mümkün deyil ki, hadisə vaxtı kirayədə yaşayanlardan heç birinin bir nəfər də olsun ailə üzvü evdə olmasın, xəsarət almasın. Çünki tamamilə kül olan hissədə azı 10 ev kirayəyə verilmişdi. Qonşular bir-birini tanıyır. Binada kimlərin yaşadığını bilirik. Başa düşürük ki, rəsmi şəkildə bu azaldılıb. Yenə də Allah onlara rəhmət eləsin. Bizim binada yaşayanların çoxu kirayədə yaşayırdı. Necə oldu ki, bina sakinlərindən 16 nəfər öldü, kirayədə yaşayanlardan bir nəfər də ölmədi? Ölən və yaralananlar arasında kirayədə yaşayan sakinlərdən heç birinin də adı yox idi. Biz, əlbəttə, onların ölməsini, xəsarət almasını istəmirik. Ancaq bu inandırıcı deyil. Açıqlanmasa da insanlar arasında belə məlumatlar gəzir”- deyə bina sakini Afət Əliyeva bildirir, digərləri də bunu təsdiqləyir.

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

**Keşlə Yük Stansiyasında taxta biznesi ilə məşğul olan iş adamları vaxtilə ərazidə özünü biznesmen, MTN-də yüksək çinli qohumları olan, onların biznes ortağı kimi təqdim edən Qədim Ədilovun barəsində ölçü götürülməməsindən şikayətçidirlər. Növbəti dəfə redaksiyamıza müraciət edən biznesmenlər bildirirlər ki, Q.Ədilov onların bir çoxlarından pul alıb və "sizə vaqonla taxta gətirəcəyəm" deyib. Amma vədini tutmayıb. Bu qalmaqallı olay haqda "Yeni Müsavat"ın 7 mart 2016-cı il tarixli sayında "Akif Çovdarovla bağlı daha bir qalmaqal ortaya çıxdı" sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda bu gün şikayətçi olan, vaxtilə Q.Ədilovun şəriki olmuş Rövşən Məhərrəmov bildirmişdi ki, Q.Ədilov mətbuatda çıxış edərək özünü zərərçəkən kimi tanıtmağa cəhd edib. Deyib ki, MTN-ə aparılıb, şəxsən Akif Çovdarov tərəfindən döyülüb, ondan böyük məbləğdə pulları alınıb. Şərikləri isə onun dediklərinin doğruluğuna şübhə edirlər.**

# Akif Çovdarovun əlaltısı "meydan sulamaqda" davam edir

## Sabiq MTN generalının yaxını olan iş adamı aldatdığı taxta ticarətçilərinin pulunu qaytarmır



Redaksiyamıza növbəti dəfə müraciət edən Xaləddin Yusibov deyir ki, Qədim Ədilov onlardan aldatma yolu ilə topladığı pullarla bu gün cənub zonasında konfet alveri ilə məşğul olmağa başlayıb: "Ondan şikayət edirik, deyir ki, mən lazım olan vəzifəli şəxslərə külli miqdarda rüşvət vermişəm, mənə heç kim heç nə etməyəcək, özünüzü yormayın. Biz borcun-xərcin içində batırıq. Baş prokuror Zakir Qaralovdan dönə-dönə xahiş edirik, bu işi şəxsi nəzarətinə götürüb ədalətli araşdırma aparılmasını təmin etsin".

X.Yusibov deyib ki, Q.Ədilov təkcə ondan taxta biznesinə görə 126 min 700 dollar və 50 min manat alıb. Əvəzində ölkəyə vaqonla taxta gətiriləcəyini, hər vaqona görə ona 2 min manat gəlir verəcəyini deyib.

**"Akif Çovdarovla bağlı yeni qalmaqal ortaya çıxdı" sərlövhəsi ilə geniş yazı dərc etdiyimizdən onun digər şəriki Rövşən Akif oğlu Məhərrəmovun dediklərini də diqqətinizə çatdırırıq.**

**Sitat:** "Bu yaxınlarda saytlarda Qədim Ədilovun müsahibəsini oxudum. Başdan-ayağa yalan danışırdı. Barəsində Nərimanov Polis İdarəsinə şikayət etmişəm. Qədim Ədilov mənim kimi bir çox iş adamını aldadıb".

**R.Məhərrəmov deyir ki, Q.Ədilovla 2014-cü ilin yanvarında Atatürk prospektindəki "Bank of Baku" filialının qarşısında adını çəkmək istəmədiyi bir şəxs vasitəsilə tanış olublar:** "Həmin vaxt özünü "Azərağa" firmasının rəhbəri kimi təqdim etdi. Bizi tanış edən yoldaş dedi ki, onunla işləyə, onun firması vasitəsilə Rusiyadan taxta-şalban gətizdirə bilərsiz. İlk olaraq "Ross" firması ilə müqavilə bağladıq. Cəmi 1 vaqon taxta gəldi. Lakin taxtanın keyfiyyəti bizi qane etmədi. Bundan sonra İrkutskdakı "Barquzin" firması ilə müqavilə bağladıq. Pul köçürmələri etdik, işləməyə başladıq. 2014-cü ilin yayına qədər beləcə işlədik. Biznesi böyütmək üçün Krasnoyarskdakı "Wood locistik" firması ilə də müqavilə bağladıq. Ümumilikdə hər dəfə bizə 6-7 vaqon taxta gəlirdi. Həmin vaxt mən "Azərağa" firmasının 50 faiz payla həmtəsisçisi oldum".

**R.Məhərrəmov deyir ki, işgüzar münasibətlər sonradan dostluq münasibətlərinə çevrilib:** "İnamımı qazanmışdı, ona 100 faiz etibar edirdim. Taxta gəlirdi, satırdıq, topladığımız pulları Qədim Ədilova verirdik ki, köçürmə etsin. 2014-cü ilin iyununda Qədim Ədilova vaqonlar tək-tük gəlməyə başlamışdı. Hər dəqiqə yanımda danışıqlar aparırdı. Guya ona Serovdan 5 vaqon taxta gələcəkdi. Elə danışırdı ki, guya Serovda meşə alıb, orada taxta emalı sexi var. Buna inanmışdım. Mənim kimi inananlar da çox idi. Keşlə Yük Stansiyasında mənim kimi iş adamlarının bir çoxunu da inandıra bilmişdi. Guya pulu yığa bilmirdi deyə vaqonlar da gəlmirdi".

**R.Məhərrəmov Q.Ədilovun dediklərinin doğru olmadığını sonradan başa düşüb:** "Ona dedim ki, sən vaqonlarını mənə ver, mən satım və köçürmələri dərhal edim, sən 15-20 gün gözləmə. Razılaşmadı. Avqustun axırında başa düşdüm ki, dələduzluq edir. Çünki mənim vaqonum "Azərağa" firmasına gəlirdi. Yük stansiyasında 4-5 nəfər iş adamı ayrı-ayrılıqda yaxınlaşırdı ki, Qədim məndən bu vaqona görə pul alıb, vaqonu mənə söz verib.

Başa düşdüm ki, adamları da, məni də aldadır. Hamı bir yerə toplaşdı. Sonuncu dəfə mənim 3 vaqon taxtam gəlmişdi. Taxtanı satanda söhbətlər açıldı. Məlum oldu ki, ona vaqon gəlməyəcək. Mənim vaqonlarımı ona-buna söz verib. Amma bu da Qədimin yalanlarının qarşısını almadı. Adamları ayrı-ayrılıqda yenə də aldadıb vaqonlarının gələcəyinə inandıra bildi. Deyirdi ki, taxta ilə yanaşı armatur da gəlir. Adamları uzaqlaşdırdı. Mənim sonuncu dəfə 110 min 767 dollarlıq 3 taxta dolu vaqonum gəlmişdi. 3-nü də Qədimə verdim. Bu günə qədər vaqonların pulundan 1 dollar da olsun qaytarmayıb.

Firmanın rəhbəri o idi deyə, köçürmələri də o edirdi. Sonuncu dəfə məndən 50 min dollar da alıb. Həmin pulu dedi ki, pulu köçürmək istəyib, guya banka borcu olduğuna görə bank borca silib. Araşdırdıq, məlum oldu ki, banka-filana borcu olmayıb. Bu da növbəti yalan olub".

**R.Məhərrəmov deyir ki, Q.Ədilov hazırda Bakıda olsa da, barəsində tədbir görülmür:** "Mənə deyirdi ki, MTN-də yaxın adamım var. 2 nəfərdən pulumu ala bilmirəm. MTN-dəki yaxın adamımdan xahiş etmişəm ki, pulumu onlardan alsınlar. Amma sonradan onun özünü MTN-ə apardılar. Onu ora aparanda Xaləddin görmüşdü. Ona demişdi ki, MTN-dən çıxandan sonra səninlə əlaqə saxlayacağam. Oradan çıxandan sonra Xaləddinlə "Lalə" kafesində nahar ediblər. Orada Xaləddinə deyib ki, MTN-də dələduzluq etdiyini ona deyiblər. Bildiriblər ki, get, camaatın pulunu qaytar. Biz bu gün də ondan pulumuzu ala bilmirik. Biz hökumətimizdən xahiş edirik ki, bu dələduzun qarşısı alınsın. Bu adam normal, qabiliyyətli iş adamlarının içinə düşüb müflis edir".

Nəzərə çatdıraq ki, Akif Çovdarov vəzifə başında olarkən taxta monopolistlərindən biri olub. O, hələ 2000-ci illərin əvvəllərində ABU-nun rektoru Elşad Abdullayevin yoxa çıxmış qardaşı Mahir Abdullayevi də taxta biznesində aldadıb, xeyli pulunu mənimsəyib. Bununla bağlı E.Abdullayev özü geniş açıqlama vermişdi.

❑ **E.HÜSEYNOV**

# Manatın ucuzlaşmasının qarşısını necə almaq olar?

## Hökumət kursu sabit saxlamaq üçün hələ də vəsait xərcləyir, Mərkəzi Bankın satıcı kimi hərraca qayıtması alqışlanır...

**Son günlər milli valyuta olan manat yenidən ucuzlaşmağa başlayıb. Artıq ABŞ-ın milli valyutası olan dolların manata qarşı məzənnəsi artaraq 1,5394 manat təşkil edib. Avro da manata nisbətən bahalaşıb. Avrozonanın vahid valyutası manata nisbətən möhkəmlənərək 1,7090 manat olub. Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Rusiyanın milli valyutası rubl manata nisbətən möhkəmlənərək 0,0241 manat olub. Türkiyə lirəsi manata nisbətən bahalaşıb. Belə ki, qardaş ölkənin milli valyutası möhkəmlənərək 0,5315 manata yüksəlib.**



Manatın kursunu sabit saxlamaq üçün hökumətin xərclədiyi vəsait isə 3 milyard ABŞ dollarını keçib. "Transparency.az" bildirir ki, iyunun 30-da keçirilən valyuta hərracında Dövlət Neft Fondu 29 banka 50 milyon dollar satıb. Beləliklə, 2016-cı ildə milli valyutanın sabitliyinə sərf olunan vəsait 3 milyard 42,8 milyon dollara çatıb. Dövlət Neft Fondunun 2016-cı ilin hərraclarında satdığı valyutanın həcmi 2 milyard 357,4 milyon dollardır. Mərkəzi Bankdan isə bu il 685,4 milyon dollar həcmində valyuta alınıb. Ötən il Azərbaycan manatı iki dəfə devalvasiyaya uğrayıb və dollar qarşısında 78 qəpikdən 1 manat 55 qəpiyə qalxıb. Hazırda 100 ABŞ dolları 153 manat 94 qəpiyə satılır.

**Ekspert Vüqar Bayramov manatın ucuzlaşmasının qarşısını almağın mümkünlüyünü bildirib.** "Artıq bir aydır ki, manat dollara nisbətən davamlı dəyər itirməkdədir. Hələlik Mərkəzi Bank prosesə tam müdaxilə etmir və hərraclarda dolların möhkəmlənməsi prosesinin qarşısını almaq istiqamətində addımlar atmır. Dolların manata nisbətən son bir ayda möhkəmlənməsi fonunda yalnız biznesin deyil, eyni zamanda əhalinin də xarici valyutalara tələbi artmaqdadır. Bu baxımdan son hərraclarda banklar hətta yarım milyard dollarlıq sifarişlə çıxış edirlər",- deyə ekspert vurğulayıb.

**Onun sözlərinə görə, hərraclarda dollar sifarişlərinin strukturu göstərir ki, bankların yüksək məbləğdə xarici valyuta istəməsi həmçinin satışa çıxarılan valyutanın həcminin az olması ilə bağlıdır:** "Hərraca çıxarılan 50 milyon dollar sifarişlərin məbləğlərinə uyğun olaraq müəyyən faiz intervalı daxilində paylaşdırılır. Məsələn, 6 milyon dollar tələbi olan bank hərraca 30 milyon dollar sifarişlə gedir. Həmin bank əmindir ki, 30 milyon dolları ala bilməyəcək, amma sifarişinin 10 faizinə ümid etdiyindən yüksək məbləğlə auksiona qoşulur. Yəni bankların əksəriyyəti "çox istəyim ki, heç olmasa azı ala bilim" prinsipi ilə hərraca gəlirlər. Bu isə o deməkdir ki, indiki məqamda Mərkəzi Bankı bazara intervensiya etməklə bazarın dollara olan tələbini azalda bilər. Hərraclarda sifarişlə tələb arasında mövcud fərq manat təklifini artırır. Hərraclar olmayan günlər məzənnəni dəyişməməklə kursu uzun müddət tənzimləmək mümkün deyil. Növbəti hərraclarda Mərkəzi Bankın hərraca satıcı qismində çıxıb birinci mərhələdə 300 milyon dollar təklif etməklə tələbi normallaşdırmağa çalışmalıdır. Əks halda, Mərkəzi Bankın "valyuta ehtiyatları, yoxsa məzənnə" arasında seçimdə tərəddüdü dolların möhkəmlənməsinin davam etməsinə səbəb olacaq. Bankların mövcud manat likvidliyini nəzərə aldıqda, onlardan yalnız birinin məzənnəyə ciddi təsir imkanları var. Mərkəzi Bankın satıcı kimi hərraca qayıtması manata təzyiqin yumşalmasına səbəb ola bilər".

**V.Bayramovun sözlərinə görə, Mərkəzi Bankın intervensiyasından sonra məzənnə marjının dəyişdirilməsi ilə bağlı qərar qəbul edilməlidir:** "Valyuta bazarında mövcud məzənnə siyasətinin liberal üzən valyuta rejimi olmadığını müəyyənləşdirmək çətin deyil. Rəsmi məzənnə ilə bazar kursu arasındakı 4 faizlik marjın iqtisadi baxımdan modelləşdirildiyini söyləmək də mümkün deyil. Bu marj bəzi kommersiya banklarına məzənnəyə spekulyativ təsir imkanları verir. Bu baxımdan, Mərkəzi Bank tələbi normallaşdıra bildiyi halda marjın 2 dəfə azaldılması barədə qərar qəbul edə bilər. Bununla yanaşı, gələcəkdə məzənnə siyasətinin liberallaşdırılması ilə mərhələli islahatlar həyata keçirilməlidir".

**O, həmçinin qeyd edib ki, kommersiya banklarının dollar sifarişi ilə xarici valyuta satışı arasındakı korrelasiyanın monitorinq edilməsinə ehtiyac var:** "Maliyyə Bazarlarına Nəzarət Palatası belə monitorinqin nəticələrinə əsasən bazar iqtisadiyyatı prinsipləri daxilində xarici valyuta üzrə tələb-təklifə təsir edə bilər. Eyni zamanda Mərkəzi Banka inamın artırılması istiqamətində islahatların aparılması zəruridir. Milli valyutaya inam Mərkəzi Bankın güvənin formalaşmasından keçidiyi üçün baş bank ilə bağlı institutsional və kadr islahatlarının aparılması məqsədəuyğundur".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

## Nizamlama prosesində ümidverici gəlişmə

**Aprelin əvvəlində çoxsaylı itkilərlə nəticələnən lokal döyüşlərdən sonra Qarabağ danışıqlarında yeni mərhələnin başlayacağı barədə ehtimallar özünü doğruldub. Bunu uzun müddətdir görüşləri baş tutmayan Azərbaycan və Ermənistan prezidentlərinin son üç ay ərzində iki dəfə - Vyana və Sankt-Peterburqda - bir araya gəlməsi, bölgəyə çoxsaylı səfərlərin edilməsi, status-kvonun saxlanmasının olduqca təhlükəli olması barədə formalaşmış ümumi rəy də sübut edir.**



# Dünya paytaxtları Qarabağ üçün hərəkətə keçdi

### Çərçivə sazişi ilə bağlı telefon diplomatiyası da fəallaşıb; ABŞ-ın dövlət katibi Azərbaycan və Ermənistan prezidentlərinə zəng vurdu, sülh çağırışı etdi; Putin və Olland isə telefonda Dağlıq Qarabağdan danışdılar; prezidentlərin görüşləri permanent şəkil ala bilər...

Qarabağdakı son hərbi toqquşmalaradək Azərbaycanın öz torpaqlarını istənilən yolla azad etməyə qadir olduğu barədə bəyanatlarına bir o qədər ciddi yanaşmayan qüvvələr də anladılar ki, ölkə prezidentinin "Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verilməyəcək" bəyanatının arxasında xalqın iradəsi, ordunun qüvvəsi dayanır və danışıqlar müsbət nəticə verməsə, alternativ variant qaçılmaz olacaq. Artıq Ermənistanda da, həmçinin işğalçı ölkəyə havadarlıq edən çevrələrdə də anlayırlar ki, Bakı mənasız danışıqların daha 20 il davam etdirilməsi, nəticədə separatçı rejimin torpaqlarımızda möhkəmlənməsi ilə razı olmayacaq, odur ki, nə yolla olursa-olsun tərəfləri masa arxasında əyləşdirib kompromislər yolu ilə sülhə nail olmağa çalışırlar.

Xüsusilə də ATƏT-in Minsk Qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın Qarabağ münaqişəsinə dair diplomatik səyləri intensivləşib. İyunun 30-da Rusiya prezidenti Vladimir Putinin Fransa dövlət başçısı Fransua Ollandla telefon danışığı zamanı digər aktual məsələlərlə yanaşı, Qarabağa da geniş vaxt ayırması bundan xəbər verir.

***

"Bütün bunlar göstərir ki, "dördgünlük" aprel döyüşləri Qarabağ münaqişəsinin həllinə keyfiyyət baxımından yeni məzmun verib. Ona görə də istisna deyil ki, növbəti görüşlərdə Qarabağ münaqişəsinin həlli ilə bağlı çərçivə sənədi üzərində işlərin başlanması üçün ciddi addımlar atılsın. Yəni biz Qarabağ münaqişəsi ilə bağlı son 20 ildə görmədiyimiz proseslərin şahidi olaq. Artıq bunun işartıları da göz önündədir". Bu fikirləri isə politoloq Elman Nəsirov gununsesi.info-ya açıqlamasında deyib. Onun sözlərinə görə, Putin və Olland ATƏT Minsk Qrupu çərçivəsində aktiv əməkdaşlığın davam etdirilməsinə dair razılığa gəliblər. Politoloq onu da deyib ki, burada erməni cəmiyyətində də ajiotaj yaratmamaq üçün danışıqlar prosesinin detalları barədə açıqlama verilmir.

Bunun ardınca ABŞ Dövlət Departamenti dövlət katibi Con Kerrinin Azərbaycan və Ermənistan prezidentləri ilə telefon danışıqlarına dair rəsmi məlumat yayıb. Məlumatda deyilir ki, Con Kerri İlham Əliyev və Serj Sərkisyanı son həftələrdə atəşkəsin əsasən təmin olunduğu Dağlıq Qarabağda "gərginlikdən qaçmağa" çağırıb. Dövlət katibi habelə ABŞ-ın münaqişənin "hərtərəfli nizamlanmasına kömək göstərməyə" hazır olduğunu ifadə edib və liderləri Minsk Qrupu çərçivəsində dialoqu davam etdirməyə çağırıb.

Telefon diplomatiyasının Azərbaycan və Ermənistan prezidentlərinin Fransada baş tutacağı gözlənilən növbəti görüşü ərəfəsində baş verməsi də diqqət çəkir. Məlumata görə, Azərbaycan və Ermənistan prezidentləri avqustda və sentyabrda görüşə bilər. Rusiyanın Sankt-Peterburq şəhərindəki axırıncı görüşdən sonra hər iki tərəfin nəticələrlə bağlı məmnunluğunu ifadə etməsi, atəşkəs xəttində gərginliyin minimuma enməsi və digər amillər proseslərin müsbət axara düşə biləcəyi inamını yaradır. Üstəlik, Ermənistanda vəziyyətin gündən-günə gərginləşməsi, hakimiyyətin dayaqlarının zəifləməsi, əhalinin ölkəni sürətlə tərk etməsi işğalçı ölkədə Qarabağla bağlı anlaşmanın labüdlüyü barədə fikirlərin formalaşmasına rəvac verən amillərdən sayılır. Hətta iddialar var ki, Sərkisyan Qarabağa sonuncu dəfə hərbi geyimdə deyil, mülki formada gəlməklə sülhə hazır olduğunu nümayiş etdirməyə çalışıb. Ancaq müşahidəçilərin fikrincə, Sərkisyanın mərhələli yolla torpaqları azad etməyə qərar verməsi onun hakimiyyətini vaxtından tez bitirə bilər, çünki Ermənistanda hələ ki müharibə tərəfdarlarının mövqeləri güclüdür. Bu mənada bəzi erməni ekspertləri güzəştlərə razılaşacağı halda S.Sərkisyanın eks-prezident Levon Ter-Petrosyanın taleyini yaşaya biləcəyini də təxmin edirlər. Lakin reallıq ondan ibarətdir ki, Qarabağ münaqişəsi əbədi olaraq bu şəkildə qala bilməz, bu, həm də regional layihələrdən kənarda qalan Ermənistanın bir dövlət kimi məhvinə aparan durumdur, bunu düşmən ölkədə də anlayanlar az deyil. Ancaq görünür hələ ki onların mövqelərinin zəifliyi konstruktiv mövqelilərin söz sahibi olmasına imkan vermir.

***

Sankt-Peterburq görüşündə "ofsayd"da qaldığı güman edilən ATƏT də artıq xeyli fəallaşıb. Quruma sədrliyi həyata keçirən Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer Ermənistan və Azərbaycan hakimiyyətləri, həmçinin erməni və Azərbaycan icmasının nümayəndələri ilə görüşüb. Aprel hadisələrindən sonra status-kvonun hər an pozula biləcəyini ATƏT sədri özü də etiraf edib və bundan sonra ənənəvi davranışların müşahidə olunmayacağı bəllidir.

Bu arada ATƏT-in Minsk Qrupunun həmsədrləri və təşkilata sədrlik edən Almaniya Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ilə bağlı qərar qəbul edib (ANS). Belə ki, qərara əsasən, İlham Əliyev və Serj Sərkisyanın görüşləri "non stop" (dayanmadan) davam etdiriləcək. Qəzetin məlumatına görə, prezidentlərin növbəti görüşləri Vyanada, Sankt-Peterburqda, Parisdə, həmçinin ABŞ-ın şəhərlərindən birində təşkil edilə bilər. Məqsəd danışıqlar prosesində intensivliyi təmin etmək və hərbi əməliyyatların yenidən alovlanmasına imkan verməmək, həmçinin görüşlər vasitəsilə danışıqlar prosesini sürətləndirməkdir. Qəzetin iddiasına görə, görüşlər avqustda Parisdə, daha sonra isə sentyabr-oktyabr aylarında ABŞ keçirilə bilər.

ABŞ dövlət katibi Con Kerri isə bu həftə reallaşdırılacaq Gürcüstan səfəri öncəsi Ermənistan və Azərbaycan prezidentlərinə telefon açıb. Dövlət Departamentinin məlumatına görə, telefon danışıqları zamanı ABŞ-ın baş diplomatı prezidentləri sülh prosesinin irəliləməsi üçün vəziyyətin gərginləşməsinə yol verməməyə çağırıb. Dövlət katibi ABŞ-ın münaqişənin hərtərəfli həllinə dəstək verməyə hazır olduğunu təsdiqləyib və prezidentləri Minsk Qrupunun vasitəçiliyi ilə danışıqları davam etdirməyə səsləyib.

Göründüyü kimi, qısa zaman kəsiyində dünyanın aparıcı güclərinin paytaxtlarının əsas müzakirə mövzularından biri Qarabağdır və son illərdə heç vaxt belə situasiya müşahidə edilməyib. Qarabağ məsələsində nəticə əldə olunması, böyük fəlakətlərə gətirib çıxaracaq müharibə ehtimallarının birdəfəlik aradan qaldırılması üçün ciddi çalışmalar var.

***

Aprel döyüşlərini dayandırmaqla aktivinə yeni "xallar" əlavə edən, hətta ATƏT-ə sədrlik edən ölkənin kansleri A.Merkelin sözləri ilə desək, Qarabağ məsələsinin həllində açar rolunu oynamaq imkanı qazanan Rusiya isə təşəbbüsü Qərbin ixtiyarına vermək niyyətində olmadığını nümayiş etdirir. Bunu Rusiya XİN başçısı Sergey Lavrovun son hərbi toqquşmaların ardınca münaqişə bölgəsinə ikinci dəfə səfərə hazırlaşması da təsdiqləyir. **"Rusiya xarici işlər naziri Sergey Lavrov iyulun 4-də İrəvana səfər etdikdən sonra Bakıya gələcək"**-deyə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov bildirib. **"Bakıda danışıqlar aparılacaq, sonra isə prezidentlərin görüşü keçirilə bilər. Fransa tərəfindən təklif var, biz buna etiraz etmirik. Əsas odur ki, danışıqlarda nəticə əldə olunsun. Sülh yolu irəliləyiş istəyiriksə, danışıqlar üçün danışıqlar olmamalıdır",** - deyə nazir vurğulayıb.

Bundan əvvəlki səfəri zamanı "çantasında" xüsusi planın olduğu deyilsə də, Lavrov masaya hər hansı planı qoymağa tələsməmişdi. Ancaq Sankt-Peterburq görüşündən sonra bəlli oldu ki, artıq müzakirələr konkret sənəd ətrafında gedir. Hətta Azərbaycan Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədov 5 rayonun azad olunması ətrafında müzakirələrin aparıldığını açıqlamışdı. Lavrovun Bakıda və İrəvanda prezidentlərin növbəti görüşü və razılaşma sənədi ətrafında müzakirə aparacağı ehtimalı var.

***

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a təsdiqlədi ki, Lavrovun Ermənistana və Azərbaycana səfəri Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə əlaqədardır:** "İki ölkə prezidentlərinin növbəti görüşünə hazırlıq gedir. Nazir Elmar Məmmədyarov ortada bir sənəd layihəsi olduğunu və müzakirələrin bu sənəd ətrafında getdiyini bildirib. Güman ki, prezidentlərin növbəti görüşü baş tutarsa, orada münaqişənin həlli prinsiplərini əks etdirən çərçivə sənədi imzalana bilər. Maraqlıdır ki, ABŞ da münaqişə tərəflərini anlaşmağa sövq edir, Kerrinin prezidentlərə mütəmadi zəngləri bunu göstərir. Suriyadan sonra Qarabağ münaqişəsinin həllində də ABŞ və Rusiya arasında konstruktiv dialoq qurulduğu ortadadır. İki böyük dövlət arasında bu məsələdə rəqabət getmir və Vaşinqton hələlik Moskvanın nizamlanma prosesində aparıcı mövqeyindən elə də narahat görünmür".

**Siyasi təhlilçi hesab edir ki, sülh sazişinin detallarının müzakirəsində ABŞ daha konkret mövqe ortaya qoya bilər:** "Məsələn, bölgəyə yeridiləcək sülhməramlı kontingentin yalnız Rusiya hərbçilərindən ibarət təşkilinə ABŞ-ın isti baxmayacağını düşünürəm. Vaşinqton böyük ehtimalla rusların da daxil olacağı çoxmillətli kontingentin formalaşdırılmasında təkid edəcək. Bu məsələdə əlbəttə ki, Azərbaycan öz qəti sözünü deməlidir. Rəsmi Bakı, əgər sülhməramlıların bölgəyə yeridilməsinə razılıq verəcəksə, çoxmillətli kontingentin formalaşdırılmasına çalışmalıdır. Həmin kontingentin tərkibində ATƏT-in Minsk Qrupunun üzvü olan Türkiyənin hərbçiləri də təmsil olunmalıdır. ABŞ-ın və Avropa Birliyinin münaqişənin həllində Rusiyanın hegemon rolunu tanımasına baxmayaraq, mən onların Rusiya ilə dünyanın müxtəlif regionlarında nüfuz dairələrini yenidən bölüşdürəcəklərinə və bizim bölgəni Rusiyaya güzəştə gedəcəklərinə inanmıram. Sadəcə olaraq, Qərb hazırkı mərhələdə Moskva ilə yeni konfrontasiya ocağının yaranmasında maraqlı deyil və Rusiyanın əsas regional güc kimi Qarabağ münaqişəsinin həllində xüsusi rolunu qəbul edir". **Ş.Cəfərlinin fikrincə, burada əsas məqsədlərdən biri də Moskvanın Gürcüstana qarşı aqressivliyini aradan qaldırmaqdan və onu Gürcüstanın, eləcə də Ukraynanın itirilməsi ilə barışmağa vadar etməkdən ibarətdir:** "Hazırkı mərhələdə Gürcüstan və Ukraynanı "ayı"nın pəncəsindən qoparmağa üstünlük verən Qərb, Azərbaycanın balans siyasətini davam etdirərək heç bir tərəfə aid olmayan "boz zona" kimi qalmasına etiraz etmir".

***

**Qeyd edək ki, ötən həftə hərbçilər qarşısında çıxış edən prezident İlham Əliyev Bakının prinsipial mövqeyini bir daha bəyan edib. Bildirib ki, Bakının mövqesində heç bir dəyişiklik olmayıb və olmayacaq.** "Bir daha qeyd etmək istəyirəm ki, məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaranmayacaq. Bu, əsas məsələdir. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu, sonranın işidir. Əlbəttə ki, müəyyən status ola bilər. Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası mövcuddur. Bunun muxtariyyət statusu var. Avropada, digər ölkələrdə mütərəqqi təcrübə və müxtəlif statuslar var. Ancaq bu status ölkəmizin ərazi bütövlüyünü pozmamalıdır" - prezident deyib. Şübhə yox ki, danışıqlarda da bu mövqe hakimdir.

❑ **Elşad PAŞASOY**



# Terrorçuların qaçılmaz aqibəti - ölüm

Xalid KAZIMLI

**İmkan ola, kamikadze teraktı həyata keçirməyə qərarlı olan və bir neçə saat sonra özünü, ətrafındakıları qətlə yetirəcək zombi ilə söhbət edəsən. Ondan bu düşüncəyə necə gəlib çıxdığını, nə düşündüyünü, doğrudanmı cənnətə gedəcəyinə inandığını soruşmaq, adamın ruh sağlığının yerində olub-olmadığını dəqiqləşdirmək olar.**

Onun bu terror aktıyla nəyə nail olmağı düşündüyünü isə kamikadzedən soruşmaq artıqdır. O, bunu bilməz. O, sadəcə, canlı bombadır, partlayıcıyla dolu jileti əyninə keçirdikdən bəri onun o ölümsaçan maddədən fərqi yoxdur.

Həmin sualı kamikadzeləri hazırlayanlara, beyinlərini doldurub labüd ölümə, kütləvi qətl törətməyə göndərənlərə vermək lazımdır.

Əslində başbilənlərin özləri kamikadzeləri uyutduqları cənnət-behişt əfsanələrinə, orada onları gözləyən huri-qılman hədiyyələri haqda nağıllara inanmırlar. İnansaydılar, ilk növbədə özləri və yaxınları kamikadze olardılar. Amma yox, onlar bu işə öz yaxın əshabələrindən heç kəsi cəlb etmirlər, nəyə görəsə bu "müqəddəs işi" başqa ölkələrdən gəlmiş yetim-yesirə həvalə edirlər.

Ancaq terror təşkilatının başbilənləri bu aktlarla nəyə nail olmaq istədiklərini, planlarının, hesablamalarının nə olduğunu deyə bilərlər.

Doğrudanmı bu adamlar ayda bir dəfə 30-40 adamın ölümünə səbəb olan terror aktları törətməklə qos-qoca dövlətlərin gəlib onlara təslim olacağını, yaxud onlarla danışıqlar masasına oturaraq terror təşkilatını suveren dövlət kimi tanıyacaqlarını düşünürlər?

Görünür ki, elə düşünürlər, hesab edirlər ki, vaxtaşırı həyata keçirilən terror aktları ilə yaxındakı və uzaqdakı dövlətləri bezdirəcək, qorxudacaqlar və hər kəs onların mövcudluğu ilə barışacaq.

Ancaq tarixdə belə bir presedent varmı ki, ayrıca götürülmüş bir ölkədə hansısa terror qruplaşması hakimiyyəti götürsün, terrorla, zorakılıqla dövləti ələ keçirsin və onların qurduğu dövlət uzunömürlü olsun?

Qədim dövrlərdə uğurla nəticələnmiş bu cür təşəbbüslər ola bilər, amma müasir dünyada terrorçuların dövlət qurması mümkün deyil. "Taliban"ın Əfqanıstanda hakimiyyəti götürməsi və 5-6 il ərzində dünyanın ən qəddar dövlətini bərqərar etməsi axırı pis qurtaran bir avantüra oldu.

Heç bir dövlət öz sərhədləri yaxınlığında sağa-sola hücum edən, insanları məhkəməsiz, həm də kütləvi şəkildə öldürən, dövlət qanunlarına, beynəlxalq konvensiyalara, bəşəri dəyərlərə məhəl qoymayan azğın qatillərin mövcudluğuna dözə bilməz.

Çünki bu, potensial təhlükə deməkdir. Bu cür quduzlaşmış quldur-qatil birləşmələri mütləq əvvəl-axır yaxın ətrafını dalayacaq.

21-ci əsr bir çox terror qruplaşmalarının öz məqsədlərinə çatmayaraq dağılmaları, məhv olmaları ilə əlamətdardır.

Şri-Lankada "Tamil ilama" terrorçuları uzun müddət silahlı mübarizə apardılar, heç nə əldə etmədilər, axırda qırılanı qırıldı, qaçanı qaçdı, yerdə qalanı hökumətə təslim oldu.

Şimali İrlandiyada özünü "İrlandiya respublika ordusu" adlandıran terror qruplaşması sonda bu cür fəaliyyətin perspektivsizliyini anlayaraq, silahlı mübarizədən əl çəkdi.

İspaniyada ETA qruplaşması da, nəhayət, silahlı mübarizədən imtina etdi. Bu ölkədə separatizm ocaqları közərə-közərə qalır, ancaq daha polis məntəqələrini, məktəbləri hədəfə alıb partlayış törədən yoxdur.

Üçüncü dünya ölkələrində fəaliyyət göstərən marksist terror təşkilatları da artıq sıradan çıxıblar. Onlardan yerdə qalanı və ən güclüsü yalnız Türkiyədəki PKK-dır. O da artıq çoxdan kürd millətçilərinin terror qruplaşmasına çevrilib.

Bir ara Türkiyə dövləti bu təşkilatın kökünü qazımaqdaykən qüdrətli Avropa dövlətlərinin təzyiqi, dövlət rəhbərlərinin qətiyyətsizliyi üzündən proses yarıda dayandırıldı. PKK silahı yerə qoymaq üzrəykən, hökumət silahı yerə qoydu, nəticədə təşkilat heç vaxt olmadığı qədər gücləndi.

Son illərdə isə daha çox dini təmayüllü terror qruplaşmaları Yaxın Şərqi qan gölünə çeviriblər. "Əl-Qaidə", İŞİD, "Boko Haram" və adları geniş ictimaiyyətə bəlli olmayan bu kimi təşkilatlar silah gücünə teokratik dövlət qurmaq, bütün dünyayla savaşmaq əzmindədirlər. Bu təşkilatların çoxu başqa dövlətlərin, məkrli siyasi dairələrin əlindəki maşadan başqa bir şey deyil.

Ancaq onların heç bir perspektivi yoxdur. Zamanı gələndə dövlətlər bir-biriylə anlaşacaq, yanıb qaralmış maşaları küllüyə atacaqlar və terrorçuların hamısı əvvəl-axır məhv ediləcək.

Sadəcə, o günə qədər bu qanlı təşkilatların əlində ölən minlərlə sadə və günahsız insan yazıq olacaq.

# Parlamentdə deputata "sus" deyilə bilərmi?

**Parlamentin son iclasında deputat Zahid Orucla Milli Məclisin sədri Oqtay Əsədov arasındakı qalmaqalın müzakirəsi hələ də davam edir. Bu hadisəni Milli Məclisdə azad sözün, tənqidi fikrin boğulması, fəal deputatlara təzyiq edilməsi kimi qiymətləndirənlər də var.**

Vəzifəsi danışmaq, müzakirə etmək, mövqe bildirmək olan deputata "sus" əmrini vermək cəmiyyətdə normal qarşılanmadı. Məsələnin əslində necə olması ilə bağlı Milli Məclisin deputatlarının rəyini öyrənməyə çalışdıq. Həqiqətənmi Milli Məclisdə alternativ fikrə dözümsüzlük, çox danışan, fəallıq edən deputatlara qarşı basqılar var?

Sualımızı cavablandıran deputatlar belə bir halın mümkün olmadığını vurğuladılar.

**Milli Məclisin deputatı Vahid Əhmədov məsələyə münasibət bildirərək qeyd etdi ki, bu məsələni həddindən artıq şişirtməyə ehtiyac yoxdur:** "Ümumiyyətlə, parlamentdə elə də ciddi bir hadisə baş verməyib. Başqa parlamentlərə baxın, görün nələr baş verir, Türkiyənin, Rusiyanın parlamentində və digərlərində. Bizim parlamentdə münasibətlər normal səviyyədədir. Danışanlara təzyiqlər olması məsələsinə gəlincə, bu doğru deyil. Məsələn, mən parlamentdə istənilən məsələ ilə əlaqədar danışıram, mövqeyimi də bildirirəm. Heç bir problem də yoxdur. Sədrlə mənim aramda da münasibətlər normal səviyyədədir. Heç bir irad da tutulmur. Burada belə bir polemika yarandı. Bunu bu qədər şişirtməyə ehtiyac yoxdur. Sadəcə, polemikadır, bir kəlmə Zahid Oruc deyib, bir kəlmə də parlament sədri deyib. Bunlar parlamentdə olan şeylərdir. Parlament nədən ötrüdür? Ondan ötrüdür ki, deputatlar gəlib öz fikirlərini söyləsinlər, müzakirə eləsinlər, mövqelərini ortaya qoysunlar. Parlamentdə danışmaqla bağlı bizə heç bir qadağa yoxdur. Fikrimizi də söyləyirik, müəyyən tənqidlər edirik, buna görə bizə irad tutulmur".

**YAP-çı deputat Aydın Mirzəzadə isə sözügedən situasiyada səhvin Zahid Orucda olduğunu və parlamentin daxili qaydaları çərçivəsində istənilən müzakirənin normal qarşılandığını bildirdi:** "Bəzi mətbuat orqanlarında bu məsələyə çox qəribə bir izahat verdilər ki, parlamentdə fəal deputatları susdurmağa çalışırlar. İş ondadır ki, Zahid Oruc heç də parlamentin ən fəal, ən çox danışan deputatı deyil. Bu baxımdan spikerin guya aktiv deputatlara təzyiq etməsi fikrinin özü gülünc doğurur. Mən aktiv deputatların adını sizin üçün sadalamaq istəyirəm. Bunlardan birincisi elə spikerin özüdür, onun müavinləridir. Deputatlardan Eldar İbrahimov, Fəttah Heydərov, Əli Mənsimov, Vahid Əhmədov, Fazil Qəzənfəroğlu, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, Qənirə Paşayeva, Hadı Rəcəbli və sair. Bunların hər biri demək olar ki, hər iclasda bu və ya digər məsələyə münasibət bildirirlər. Onlardan başqa bir 50 nəfər deputatın adını da çəkmək olar ki, onlar bəzən çox kəskin, rəsmi mövqeyə alternativ olan mövqe bildirirlər. Onların heç biri də bu cür situasiyaları yaşamırlar. Parlament danışmaq yeridir, polemika yeridir. Spikerlə mənim dostum Zahid Oruc arasında baş verən gərginlik Zahid Orucun parlament qaydalarını gözləməməsi nəticəsində meydana gəldi. Spiker onun sözünü kəsmədi, sadəcə olaraq, məsələnin gündəliyə aid olmadığını bildirdi. Zahid Oruc çox təəssüf ki, öz dediyinin doğru olduğunu dedi. Demək olar, ancaq bunun da qaydası var. Yerindən danışmaq, mikrofondan kənar danışaraq iclasın gedişatını pozmaq və sair hamısı Azərbaycan parlamentində qəbul olunmayan məsələlərdir. Mən inanıram ki, həmkarım Zahid Orucun məsələsinin İntizam Komissiyasında müzakirəsindən sonra, o gələn sessiyalarda yenidən fəal olacaq, ancaq daxili nizamnamə çərçəvəsində, bütün qaydaları gözləməklə bunu edəcək".



**Vahid Əhmədov:** "Parlament ondan ötrüdür ki, deputatlar gəlib öz fikirlərini söyləsinlər, müzakirə eləsinlər, mövqelərini ortaya qoysunlar"



**Aydın Mirzəzadə:** "Spiker onun sözünü kəsmədi, sadəcə olaraq, məsələnin gündəliyə aid olmadığını bildirdi"

**Milli Məclisin deputatı Fərəc Quliyev isə qeyd etdi ki, əslində spikerlə Z.Oruc arasında baş verən mübahisə parlament üçün normaldır, sadəcə, cəmiyyət bunu fərqli şəkildə qəbul etdi:** "Bütün ölkələrin parlamentində belə hadisələr baş verir, mübahisələr, hətta əlbəyaxa davalar olur. Bizim parlament bu baxımdan daha intizamlıdır və hər şey qaydalar çərçivəsindədir. Mən baş verən hadisəni demokratiyanın təzahürü kimi qiymətləndirirəm. Hesab etmirəm ki, parlamentdə kiminsə hansısa fikir deməsinə qarşı basqı var. Mən özüm hər zaman tənqidi fikirlərimi söyləmişəm, heç vaxt da basqı ilə üzləşməmişəm. Sadəcə, orada Oqtay müəllim bir qədər yaşda böyükdür deyə, Zahid bəy də onu nəzərə alaraq icazəsiz söhbətə girməməli idi. Məhz bununla bağlı ona irad bildirdi. Lakin söylənən və orada qoyulan məsələlərlə bağlı mübahisəli heç nə yoxdur. Parlamentdə heç bir məsələnin müzakirəsinə müdaxilə olunmur. Hər kəs çox rahat şəkildə istənilən məsələni, hətta gündəlikdə olmayan məsələləri belə müzakirəyə çıxara bilər. Mən hesab etmirəm ki, bu hadisə müxalif fikrə basqı kimi qəbul olunmalıdır. Parlament söz davası yeridir. Qafaların davası yeridir. Qonşu ölkələrin parlamentində də kəskin mübahisələr olur, dava düşür, bir gündən sonra da hər şey qaydasına düşür, bu normaldır".

Sonda onu da qeyd edək ki, "parlament" fransız dilindəki "parler" sözündən yaranıb. Parler danışmaq deməkdir. Hakimiyyətin ali təmsilçi orqanıdır. Orta əsrlər Avropada yüksək təbəqələrin nümayəndələrdən formalaşan məşvərət və qanunverici orqan idi. Müasir mənasını 17-19 əsr burjua inqilablarından sonra qazandı. Parlamentarizm cəmiyyətin dövlət idarəçilik sistemidir. O, parlamentin başqa hakimiyyət qanadlarına münasibətdə üstün mövqeyə malik olması ilə yanaşı, qanunverici və icraedici funksiyalarının dəqiq şəkildə müəyyənləşdirilməsi ilə xarakterizə olunur.

❑ Nərgiz LİFTİYEVA

# Ölkədəki təşkilatlar niyə parçalanır?

## Ekspertlər ciddi ideologiyanın olmamasını və ölkədə ictimai-siyasi sistemin pozulmasını əsas səbəb kimi göstərirlər

**Son olaraq "Borçalı" Cəmiyyəti ətrafında baş verənlər ölkədəki ictimai-siyasi təşkilatların parçalanması məsələsini bir daha gündəmə gətirdi. Ekspertlər bildirirlər ki, təşkilatların parçalanmasının əsas səbəbləri onların ciddi ideoloji əsaslarının olmaması, həmçinin hakimiyyətin apardığı siyasətdir.**

**Ekspert Natiq Miri** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əsas səbəb bu təşkilatların ciddi ideoloji əsaslar üzərində qurulmamasıdır: "İkinci səbəb ölkədə siyasi fəaliyyət üçün bütün siyasi təşkilatlar üçün olmayan bilavasitə şərait, mühitlə bağlıdır. Üçüncü, təbii ki, ölkədə siyasi mühit deyərkən, bilavasitə seçkidə iştirak etmək, seçkini udmaq şansının olmaması ilə bağlıdır. Çünki siyasi təşkilatların əsas hədəfi hakimiyyətdə bilavasitə iştirak etməkdən ibarətdir. Bu şansın müxalifətə verilməməsi, siyasi təşkilatlara verilməməsi təbii ki, bu təşkilatların əlindən həmin stimulu alır. Ona görə də seçkinin bilavasitə demokratik keçirilməsi siyasi təşkilatların fəaliyyəti üçün çox böyük stimuldur. Ona görə də bu cür mühitin, siyasi şəraitin olmaması siyasi təşkilatlarda müəyyən parçalanmalara gətirib çıxarır. Ən nəhayət, bilavasitə siyasi hakimiyyətin də bu məsələdə rolu az deyil. Bu parçalanmalarda siyasi hakimiyyətin də rolu var. Həmin təşkilatlarda bəzən sədrlər müəyyən cəhətdən, maddi və digər səbəblər üzündən ələ alınır. Bu insanlar vasitəsilə də siyasi təşkilatlar parçalanır və zəifləndilir".



Natiq Miri



Ərəstun Oruclu

**Ekspert Ərəstun Oruclu isə qeyd edib ki, təşkilatların parçalanmasının bir sıra səbəbləri var:** "Əsas səbəb ölkənin ictimai-siyasi sisteminin pozulmasıdır. Məhz bu səbəbdən də bütün elementlər, institutlar, o cümlədən siyasi təşkilatlar hamısı parçalanmaya məruz qalır. Yeni sistem pozulub, nəticə budur. İkinci səbəb isə odur ki, avtoritar bir atmosfer var, əhval-ruhiyyə var. Hər kəs öz ətrafında bir birlik yaratmaq istəyir. Başqa səbəblər də var, amma əsas səbəblər bunlardır".

❑ Röya RƏFİYEVA

# Müxalifət xalqın yanından gedib

## Demokratik düşərgə ölkədə cərəyan edən proseslərdən istifadə etmək iqtidarını niyə itirib?

**Azərbaycan müxalifətinin susqunluğu bitmək bilmir. Demokratik düşərgə ölkədə baş verən, vətəndaşları narahat edən məsələlərə münasibət bildirməkdə aciz duruma düşüb. Son bir ildə yaşanan devalvasiyalara və hazırda "Sovetski"də evlərin sökülməsina münasibət bunu sübut edir.**

Müxalifətin özünü cəmiyyətdən ayırdığını təəssüflə qeyd edə bilərik. Hər ölkədə vətəndaşları yaxından ilgiləndirən bütün məsələlərə ilk növbədə, həmin ölkənin müxalif camiəsi münasibət bildirir. Amma Azərbaycan müxalifəti bunu bildiyi halda vəzifəsinin öhdəsindən gəlməkdə çətinlik çəkir. Heç şübhəsiz ki, bunun kökündə müxalifətin zəifliyi və hakimiyyətin repressiyaları dayanır. Lakin bu da çıxış yolu deyil.


**Tural Abbaslı:** "Xalq artıq onlara inanmır"


**Elman Fəttah:** "Müxalifətin xalqı səfərbər etməsinə mətbuat mane olur"


**Xəzər Teyyublu:** "Belə getsə, ölkədə təkpartiyalı sistem formalaşacaq"

**Yeni yaradılan AĞ Partiyanın sədri Tural Abbaslı** son 23 ildə ölkədə vəziyyəti dəyişmək üçün müxalifətin istifadə etməli olduğu bütün hadisələrin baş verdiyini, lakin demokratik düşərgənin bundan istifadə edə bilmədiyini qeyd etdi: "Bu fürsətlərdən istifadə etməyən müxalifətimiz var. Bu, heç də yaxşı hal deyil. Müxalifət etiraz dalğasını gücləndirən, dövlətin inkişafında maraqlı olan bir düşərgədir. Hakimiyyət buna uyğun şəkildə fəaliyyətində korrektələr aparır və xalqa xidmət edir. Son 23 ildə siyasi və iqtisadi sahələrdə ciddi hadisələr baş verib ki, müxalifət burada əsas rol oynaya bilməyib. İstifadə etmək istəməyiblər, yaxud bunu edə bilməyiblər? Bu suallar daim müzakirə obyekti olub. Kimsə deyə bilməz ki, hansısa siyasi qurum hakimiyyətə gəlmək istəmədiyinə görə bundan istifadə etmir. Əminəm ki, özünü müxalifət adlandıran istənilən qüvvə belə hadisələrdən istifadə edib, hakimiyyətə gəlmək arzusunda olub. Amma bunu bacarmayıb. Çünki xalq artıq onlara inanmır. Xalqın inamını itirmiş bir qüvvənin onun adından danışıb uğur qazanması mümkün deyil. Əminəm ki, indiki müxalifət dəyişməsə, adlar qalmaqda davam etsə, bundan sonra da bu tipli hadisələrdə siyasi düşərgə heç nə edə bilməyəcək. Vəziyyət isə daha da qəlizləşəcək. Yeni simalar ortaya çıxmalıdır. Xalqdan şans almağın zamanıdır. Xalq bu şansı indiki müxalifətə dəfələrlə verib. Amma səmərəsi olmayıb. AĞ Partiyanın timsalında bunları etməyə çalışırıq. Proseslərə təzə başlamışıq. Əminəm ki, xalq yaxın zamanlarda timsalımızda yeni simalar görəcək, bizi qəbul edəcək. Biz də bu günkü müxalifətdən fərqli olaraq, o şansdan istifadə edib, xalqımız və dövlətimiz üçün xeyirli işlər görəcəyik".

**Müsavat başqanın müavini Elman Fəttah bu məsələdə nə qədər qəribə də olsa, müxalifəti yox, medianı suçladı:** "Mətbuat bu barədə silsilə yazılar yazmalıdır - başda "Yeni Müsavat" qəzeti olmaqla. Ölkədəki insan haqları və demokratiya ilə bağlı geniş yazılar dərc olunmalıdır. Media bu işi önə götürməlidir. Vətəndaşların mülklərinə edilən hücumlardan reportajlar hazırlamalı, müxalifətdən bu barədə fikirlər almalıdır. İnsanlar bu xəbərləri oxumalıdır. Amma təəssüflər olsun ki, Azərbaycanda medianın əsas orqanları yanlış yazılar dərc edir, hökumətin təbliği ilə məşğul olurlar. Bu da müxalifətin xalqı səfərbər etməsinə ciddi maneçilik törədir".

**KXCP sədrinin müavini Xəzər Teyyublu bu gün ölkədə siyasətin yox dərəcəsinə gətirildiyini bildirdi:** "Ölkədə siyasi partiyalara hörmətsiz yanaşılır, üzvlərə qarşı təzyiqlər olunur. İnsanları yorurlar. Ölkədə o qədər ciddi proseslər gedir ki, müxalifət gücsüz hala gəldiyindən susqun görünür. Fəlakətli bir dövr yaşayırıq. Siyasi partiyalara qarşı bu cür münasibət davam edəcəksə, ölkədə təkpartiyalı sistem formalaşacaq. Partiyalar indi bəyanatlar, hökumətə təkliflər verməkdən o yana işlər görə bilmirlər".

❑ Cavanşir ABBASLI

# "Məni tanımırlar, amma Röyanı, Faiq Ağayevi tanıyırlar... "

## Rəhim Qazıyev ATV-də onunla bağlı yaşanan qalmaqaldan danışdı

**Bugünlərdə ATV-nin gənc əməkdaşlarının təsadüfən sabiq müdafiə naziri Rəhim Qazıyevi efirə çıxartması qalmaqal yaratmışdı. Yayılan məlumatlara görə, kürəyə banka qoyulmasının faydaları ilə bağlı hazırlanan süjetdə bilmədən parkda gəzişən Rəhim Qazıyevin də fikirlərinin alınması televiziya rəhbərliyinin qəzəbinə tuş gəlib.**

**Sabiq müdafiə naziri Rəhim Qazıyev** olayla bağlı "Yeni Müsavat"a danışaraq məsələyə öz mövqeyini bildirib: "Bununla bağlı münasibət bildirib üzr istəmişəm ki, vallah, mən nə bilim ki, banka salmaq məsələsi siyasi məsələdir?! Orda Rəhim Qazıyev danışa bilməz, bu, yuxarı rəhbərlərin acığına gəlib?! Heç vaxt istəmərəm ki, jurnalistlər bir tikə çörək pulu qazanır, mənə görə onlara ağır söz gəlsin".

**Rəhim Qazıyev qalmaqallı süjetin çəkiliş məqamından da danışıb:** "Mən onları heç tanımırdım. Bağda oturmuşdum, dedilər ki, banka məsələsi... Təbii ki, mən orda təkcə bankadan deyil, səhiyyə və digər məsələlərlə bağlı da danışmışam. Bu da yəqin onların acığına gəlib. Mən belə şeylərə öyrənmişəm".

**Sabiq müdafiə naziri gənc jurnalistlərin onu tanımamasına da münasibət bildirib:** "Mən kiməm ki?! Təsəvvür edin ki, Azərbaycan üçün təməl daşını qoyan M.Rəsulzadəni, Azərbaycanın ən qüdrətli alimlərindən olan Yusif Məmmədəliyevi, Topçubaşı tanımırlar. Ona görə də məni belə şeylər maraqlandırmır... Mən hərəkata heç bir məqsədlə gəlməmişəm, gələndən sonra da itirmişəm ancaq. Burda heç kimə minnət qoymuram. Vətən həm sizin, həm mənim ortaq anamızdır. Mən oğul olaraq anama əlimdən gələni etmişəm. Hələ ki bunu pisə yozurlar, canımız sağ olsun... Məni tanımırlar, amma Röyanı, Faiq Ağayevi tanıyırlar. O şöhrətin sahibi deyiləm və onun dalınca qaçmamışam. Mənim peşəm müəllimlik olub. Müəllim kimi tələbələrim məni görəndə boynumu qucaqlayıb, çünki onların cibinə girib pul almamışam. Bu, xoşbəxtlikdir. Qısamüddətli nazir olmuşam, təkcə Bakıda 3800 ev paylamışam. 40 ildir ki, 9 mərtəbəli binanın 9-cu mərtəbəsində yaşayıram, övladlarım ev tikdirir, mən onlara kömək ola bilmirəm. Xalqın əksəriyyəti necə yaşayırsa, mən o cür yaşamışam. Buna görə xoşbəxtəm... "


Rəhim Qazıyev

Xatırladaq ki, bugünlərdə ATV-nin gənc əməkdaşları türkəçarənin faydalı olub-olmaması ilə bağlı Milli Parkda sorğu keçirərkən təsadüfən sabiq nazir Rəhim Qazıyevin də fikrini soruşublar. Sabiq nazir kürəyə banka qoyulmasının faydalarından danışıb. Gününsesi.info saytının yaydığı məlumata görə, süjeti izləyən televiziya rəhbərliyi Rəhim Qazıyevin danışdığını görüb şok keçirib. Məsələ ilə bağlı bir sıra əməkdaşların işdən çıxarılacağı gözlənildiyi deyilsə də, ATV-nin xəbərlər xidmətinin baş redaktoru və telekanalın mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu "Yeni Müsavat"a açıqlama verərək yayılan informasiyaların yalan olduğunu bildirib.

❑ Xalidə GƏRAY

# Terrordan da qorxulu



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Mübarək Ramazan ayı başa çatır. Əfsus ki, od-alov, qan-qada içində olan bölgəmiz heç olmasa, bu ayda da nisbi sakitlik tapmadı. İraqda, Suriyada, Türkiyədə terror, qətliamlara əziz ayda belə ara verilmədi. Hətta Allah evi sayılan məscidlərə aman tanınmadı, partlayışlar davam elədi, möminlər qətlə yetirildi. Beləcə, "Şeytanların zəncirləndiyi ay"da da ikiayaqlı şeytan-terrorçular bəd əməllərindən qalmadılar...**

İslam Peyğəmbərinə (s) görə, Ramazan ayında da bağışlanmayan adam ən bədbəxt adamdır. Gör indi bu mübarək ayda günah yandırmaq əvəzinə yeni, böyük günahlar qazanan, insanları, o cümlədən ağzı oruclu müsəlmanları, toyuna cəmi bircə həftə qalan müsəlman gənci qətlə yetirənləri nələr gözləyir.

Onları indi necə Məhəmməd ümmətinə aid edəsən? Onların, ümumiyyətlə, insanlığa dəxli yoxdur. İnsanlığa qənim kəsilənlər insan adlana bilməz ki...

İnsanlıq düşmənləri Türkiyəmizi yenə hədəf götürdülər. Bununla bir daha bəşəriyyətə hədənin əslində eyni ünvandan - böyük və qlobal miqyaslı şərdən gəldiyini ortaya qoydular. Çünki Türkiyəyə kimi həmin qüvvələr analoji terror aktlarını Avropada, Fransada, Belçikada törədiblər, törətmək planlarına davam etməkdədirlər.

Yəni son deyil hələ. Keşkə yanılaydıq. Keşkə heç kim terror dəhşətinin qurbanı olmayaydı. Amma görəndə ki, ikiayaqlı şeytanlar böyük və çirkin siyasi oyunlarda hələ də üçüncü qüvvələr tərəfindən vasitə kimi istifadə edilir, nikbinliyə yer qalmır.

"Zülmə dözən varsa, zülm də olacaq" deyib məsumlardan biri. Terrorun da kökü o vaxt kəsiləcək ki, ona qlobal miqyasda, bütün irili-xırdalı dövlətlər səviyyəsində, hamılıqla, total dözümsüzlük göstəriləcək.

Nə yazıq ki, üfüqdə belə bir şey görünmür. Ona görə ki, kimlər üçünsə, müəyyən böyük güclər üçün terror hələ də nisbi anlayışdır, öz milli maraqlarını gerçəkləşdirmək yolunda məqbul vasitələrdən biridir.

Yeni hamıya klassik terror kimi görünən bir faciə kiməsə sadəcə, mübarizə vasitəsi qismində, adi gələ bilir. "Yaxşı terror", "pis terror" təsnifatı elə buradan yaranıb.

Nə qədər ki, belə əcaib təsnifat mövcuddur, bəşəriyyət qlobal terror bəlasından qurtula bilməyəcək. Nə qədər ki, dünyanın aparıcı dövlətləri yığışıb terror təşkilatlarının vahid siyahısını hazırlamayıb, onlarla vahid mübarizə taktikasını müəyyən etməyib, beynəlxalq terrorizmin kökü də kəsilməyəcək.

Mümkün deyil. Çünki bir yandan terrorçular, onların maliyyə qaynaqları məhv ediləcəksə, o biri yandan maraqlı siyasi mərkəzlər hesabına təzələri və təzə maliyyə mənbələri peyda olacaq.

Terroru qidalandıran mənbələr qaldıqca terror da şəkk-sübhəsiz, qalacaq. Unutmayaq, İŞİD sıralarına qoşulan gənclərin mütləq əksəriyyəti maddi faktora görə bu "ölüm batalyonları"na qoşulublar...

Qayıdaq İstanbuldakı son terror olayına.

Qardaş Türkiyə artıq neçə gündür xain terror hücumundan aldığı yaralarını sarıyır. Bu yara da sağalacaq təbii ki. Söhbət Türkiyə dövlətindən gedir. Ancaq insanlara, qəlblərə, ailələrə vurulan yaralar sağalmayacaq. Onlar ikiayaqlı vəhşiləri və onların arxasında duranları həmişə lənətlə yad edəcək, qarğıyacaqlar. İlahi cəza da ki, öz yerində.

Bu cəzadan terrora gizli-açıq dəstək, nəfəs və stimul verən siyasi qüvvələrə, dövlətlərə də pay düşəcək. Gec-tez. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təbirincə desək, "bu gün Türkiyədə partlayan bombalar sabah onları göndərənlərin əlində partlayacaq".

Terrora nəfəs verənlər terrorçulardan da qorxuludur. Demək, əsas mübarizə birincilərə qarşı aparılmalıdır.



# Kövrək qəlbli icra başçısı

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə Qazax rayonundan bir məktubu dərc edək. Qazax şəhər bələdiyyəsinin üzvü Azər Məmmədli yazır ki, rayonda yolların təmiri, abadlaşdırma üçün ayrılan pulların təxminən 1 milyon 500 min manatını vəzifəli şəxslərin oğurlaması haqda prezidentin rəsmi internet səhifəsinə müraciət ünvanlayıb. Bundan sonra Qazax Rayon İcra Hakimiyyətindən cavab gəlib ki, vəsaitin hamısı təyinatı üzrə xərclənib. Yəni şikayətçinin məktubuna elə şikayət olunan ünvan özü cavab veribdir. Ancaq bu rəsmi cavabdan başqa Azər bəyə qeyri-rəsmi cavab da verilib: "Biz əvvəlki icra başçısının vaxtında olanlara baxmırıq. Nə yeyinti olubsa, onda olub". Təzə icra başçısı isə rayona bu ilin 19 mayında qoyulub. Azər Məmmədli onun haqqında yazır: "Adamın üstündə Allah var. Yeni başçı enerjilidir, işləməyi bacarır, xalqla daim təmasda olur. Hətta küçədə insanlara salam belə verir. Çayxanalarda adi bir insan kimi çay da içir. Qısa müddət ərzində xalq arasında böyük nüfuz qazanıb. Bircə il işləməyə imkan versələr, Qazaxda böyük dəyişikliklər baş verər. Xahiş edirəm ki, yuxarıda olan korrupsionerlərə tapşırasınız başçıya imkan versinlər işləsin. Ürəyində həddən artıq kövrəkdir. Belə ki, axşam işdən çıxartdığı şəxsləri özü peşman olub səhər işə bərpa edir. Hər rüşvət alana söyüş qoyub. Mənə elə gəlir bu təşəbbüsü respublika səviyyəsində tətbiq etmək olar".**

Doğrudan da icra başçısının xalqla birlikdə çay içməsi çox yaxşı haldır. Bu gedişlə xalq-hakimiyyət birliyi daha möhkəmlənər, hətta ola bilsin şikayətlərə düzgün baxılar.

Başqa bir hörmətli oxucumuz Firəngiz Əsgərzadə isə yas yerlərində rastlaşdığı ictimai-siyasi dualar haqda fikirlərini bizə göndərmişdir. Bu, xüsusilə kişi oxucularımız üçün maraqlı olmalıdır, çünki məlum səbəblərdən bizim zənən məclislərinə baxmaq imkanlarımız məhduddur. Oxuyaq görək xanım nə yazır:

"Yaşımla əlaqədar olaraq, evlərdən uzaq olsun, yas məclislərinə çox gedirəm. Bilirsiniz ki, *(düzü, mən bilmirdim - Z.H.)* qadınların yas mərasimlərində bir qədər Quran oxuduqdan sonra dualar oxunur, molla hər duanı dedikdən sonra hamı "Amin" deməlidir. Əvvəlcə ölülər və onun yaxınları, sonra əsgərlərimizə və sairə dualar deyilir. Son aylarda bütün bu dualara biri də əlavə olunub "Allah bizi siyasətə qarışmaqdan uzaq eləsin". Yəqin ki, bunlar da Şeyximizin başçılıq etdiyi idarədən müəyyən təlimatlar əsasında həyata keçirilir. Ancaq mən arzulayıram ki, hamımız müəyyən dərəcədə siyasətçi olsaq ağı-qaradan seçməyi bacararıq və bu mövzunu da yazılarınızda işıqlandırsanız pis olmaz!"

Firəngiz xanım daha qabağa gedərək məktubunda bu cür dualar oxunmasını "qoyunlaşmaq duaları" adlandırıbdır. Ancaq mən bu cür təsnifatla razı deyiləm. Molla insanları siyasətdən uzaq olmağa çağırmaqda düzgün hərəkət edir. Siyasət çirkin, əxlaqsız hərəkətdir. Bununla hökumət, yapçılar, bir-iki nəfər qalmış müxalifətçilər məşğul olsalar yaxşıdır. Hələ dünya tarixində bir kimsə siyasətdən xeyir görməyibdir. Biz yaxşıyıq, bir çox ölkələrdə siyasətlə məşğul olanları vurub öldürürlər. Nəyə gərəkdir? Başını sal aşağı, həyatını yaşa. Özü də bunun qoyun-moyun söhbəti ilə qəti əlaqəsi yoxdur. Həyat belədir. Deyir, bir gün bir qoyun nəşriyyata kitab gətirir, naşir *(canavar imiş özü də)* açır əlyazmanı, görür burda ancaq "M-ə-ə-ə..." yazılıbdır, başqa heç bir söz yoxdur. Naşir deyir bu nədir, başqa söz yoxdurmu? Qoyun deyir niyə yoxdur, əlbəttə vardır, ancaq mən həqiqətdən başqa heç nə yaza bilmərəm!

İndi siyasətə qarışmaq olmasın, ölkəmiz inkişaf edir, hər gün dükan-bazarda qiymətlər qalxır. Bunun özü yüksəliş deyilmi? Qiymətli ölkədə yaşayış da bahalı olmalıdır.

"Amicus Plato, sed magis arnica Veritas!" - qədim romalılar demişkən. Tərcüməsi belədir ki, Qazax rayonu başqa rayonlarımız qədər bizə əzizdir, doğmadır, inkişaf etməkdədir!

# "Qaz müharibələri" həlledici mərhələyə adlayır

**"İsrail hasil elədiyi təbii qazı TANAP (Trans-Anadolu Qaz Kəməri Layihəsi) vasitəsilə Türkiyə üzərindən Avropaya nəql edə bilər". Bunu İsrailin energetika naziri Yuval Şteynits bildirib. Nazirin sözlərinə görə, İsrailin çox böyük qaz ehtiyatı var və gələcəkdə bu göstərici 2,5 trilyon kubmetrə çata bilər. O, İsrailin TANAP-a qoşulmasının hər iki ölkəyə xeyirli olacağını deyib.**




## Yəhudi dövlətindən Türkiyə və Azərbaycana böyük jest

### İsrail TANAP-a qoşulacaq; İran da ona qoşula bilər; "Türk axını" layihəsi isə təzədən gündəmə qayıdır; türk-rus, türk-İsrail barışığı qaz bazarları uğrunda rəqabətə stimul verib...

Yada salaq ki, daha öncə beynəlxalq sanksiyalardan qurtulan İran Azərbaycanın "Şahdəniz-2" qazını Avropaya çatdıracaq Cənub Qaz Dəhlizinin (CQD) ikinci seqmenti olan TANAP-a maraq göstərib və ona qoşulacağını istisna etməmişdi. Eyni fikri bu ilin martında Bakıda keçirilən "Caspian Oil and Gas 2015" konfransında **Azərbaycanın energetika naziri Natiq Əliyev** bildirmişdi.

"Əgər proseslər belə davam etsə, gələcəkdə İran TANAP-a qoşula bilər və öz qazını Avropaya çıxarmaq imkanı əldə edər. Böyük enerji resurslarına malik İraq, İsrail və Kipr də öz qazını Azərbaycanın infrastrukturundan istifadə etməklə Avropaya ixrac edə bilər... Biz İsrail və Kiprlə də danışıqlar aparmışıq. Onlar gələcəkdə Türkiyə ərazisindən keçən Azərbaycan infrastrukturundan istifadə etməklə öz qazlarını Avropaya çıxara biləcəklərini deyirlər" - nazir qeyd eləmişdi.

***

Lakin İsraillə İranın bəlli münasibətləri nəzərə alınarsa, bu iki dövlətin eyni beynəlxalq energetik layihədə iştirakının nə dərəcədə mümkün olacağını söyləmək bəlkə də tez olardı. Hərçənd söhbət Azərbaycan-Türkiyə layihəsindən gedir. Bu üzdən İsrail və İranın TANAP-a qoşulması zamanı ortaya hansısa siyasi əngəlin çıxmayacağına da proqnoz eləmək mümkündür.

Başqa yandan, iqtisadi maraqlar çox vaxt siyasi ziddiyyətləri arxa plana keçirə bilir. Sanksiyalardan qurtulan İrana isə Avropanın əsas neft-qaz bazarlarına çıxış çox vacibdir. Bundan ötrü isə ona yaxşı ixrac boru kəmərləri infrastrukturu lazımdır ki, bu da yoxdur və ya zəifdir. Türkiyə və Azərbaycan isə əksinə, artıq belə kəmərlərə sahibdir, gələn ilin sonuna isə TANAP da hazır olacaq.

***

Sözsüz ki, həm İsrailin, həm də İranın TANAP-a qoşulması Azərbaycanın da iqtisadi maraqlarına cavab verir. Çünki o halda ümumən Cənub Qaz Dəhlizinin rentabelliyi və etibarlılığı daha da artacaq, Azərbaycanın və Türkiyənin bölgə və dünya üçün energetik əhəmiyyəti güclənəcək.

Bu, sözsüz ki, İsrail-Türkiyə barışının doğurduğu ilk müsbət nəticələrdən biridir. Ancaq situasiyanın maraqlı özəlliklərindən başqa biri Rusiya-Türkiyə barışığından sonra "Türk axını" qaz kəməri layihəsinin də gündəmə qayıtmasıdır. Bu layihə isə bəlli olduğu kimi, TANAP-a və onun davamı olan TAP-a (Trans-Adriatik Qaz kəməri Layihəsi) alternativ sayılır.

"Rusiya "Türk axını" ilə bağlı müvafiq infrastruktur layihələrini reallaşdırmağa hazırdır, ancaq problem ondadır ki, Ankara və Avropa Birliyi üzrə tərəfdaşlar da buna hazırdırmı?" Bunu **Rusiyanın energetika naziri Aleksandr Novak** Moskva-Ankara münasibətləri normallaşması kontekstində vaxtilə dondurulmuş layihənin aqibətindən danışarkən bildirib.

**Lakin nazir obyektiv siyasi manelərin qaldığını da etiraf edib.** ""Türk axını" ilə bağlı Qara dənizin dibi ilə qaz kəmərinin çəkilişi üzrə müvafiq infrastruktur layihələrini həyata keçirə bilərik. Ancaq ən başlıcası odur ki, bizim türkiyəli tərəfdaşlarımız və həmkarlarımız, eləcə də avropalı həmkarlar bu layihələrin reallaşmasına hazırdırlarmı? Çünki hazırda Avropa Komissiyasının bu məsələ ilə bağlı dəqiq mövqeyi yoxdur. Avropa Komissiyası tərəfindən müəyyən zəmanətlər verilərsə, biz bu layihəni həyata keçirməyə hazırıq", - deyə o, jurnalistlərə açıqlamasında qeyd edib.

***

Yada salaq ki, Rusiya 2014-cü ildə Avropa Birliyinin neqativ mövqeyi üzündən "Cənub axını" layihəsini dondurduğunu elan edib. Bu kəmər Bolqarıstan, Serbiya, Macarıstan ərazisindən Türkiyə istiqamətində yeni qaz kəmərinin xeyrinə inşa edilməli idi. Lakin layihə Moskva və Ankara arasında siyasi münasibətlərin soyuması ucbatından dondurulmuşdu.

Rəsmi Kremlin özü də "Türk axını" məsələsinə hələlik skeptik yanaşır, nəinki nikbin. Çünki Rusiyanın Türkiyə ilə münasibətləri normallaşsa da, Ukrayna görə Qərblə, Avropa ilə, ABŞ-la münasibətləri gərgin olaraq qalır. Təsadüfi deyil ki, ABŞ-ın Şərqi Avropa ölkələrinə güclü təzyiqi nəticəsində Avropanın Rusiya qazından asılılığını gücləndirəcək "Cənub axını" layihəsi yarımçıq qalıb, "Türk axını" isə TAP-la rəqabətdə uduzub. Üstəlik, Ankara-Moskva münasibətlərinin soyuması onun taleyini bir az da qaranlıq eləmişdi.

Bununla belə, Rusiyanın qaz müharibəsində elə-belə geri çəkiləcəyini düşünmək yanlış olardı. Üstəgəl, indi Türkiyə də əslində "Türk axını"nın hansısa şəkildə reallaşmasında maraqlıdır. Çünki bu, qardaş ölkə üçün həm əlavə və böyük iqtisadi mənfəət deməkdir, həm özünün qaza ehtiyacının zəmanətli ödənməsi və energetik təhlükəsizliyinin güclənməsi deməkdir, həm də Türkiyənin bölgədə əsas energetik xaba (paylayıcıya) çevrilməklə Avropa üçün artan önəmi və daha güclü söz sahibi olması deməkdir.

Belə görünür ki, "Qaz müharibələri" yeni və sonuncu mərhələyə keçir.

❑ Siyasət şöbəsi

## SOCAR "Palmali"yə 120 mln. dollar ayırıb, qarşı tərəfin səhmləri girov qoyulub

**SOCAR "Palmali International Holding Co Ltd"-yə ("Palmali") 120 mln. ABŞ dolları məbləğində kredit ayırıb.**




"APA-Economics" xəbər verir ki, bu barədə SOCAR-ın 2015-ci il üzrə konsolidasiya edilmiş maliyyə hesabatında bildirilir.

Hesabatda deyilir ki, kreditin müddəti 31 dekabr 2021-ci il tarixində başa çatacaq. Kredit illik LİBOR üstəgəl 4,5% dərəcəsi ilə ayrılıb.

Müqavilənin şərtlərinə əsasən, əsas və faiz məbləği hər rüb ödənilməlidir. 31 dekabr 2015-ci il tarixinə "Palmali"yə verilmiş kredit üzrə alınacaq məbləğin balans dəyəri 122 milyon manatdır.

Qeyd edək ki, SOCAR və "Palmali"nin səhmdarları arasında 7 oktyabr 2009-cu il tarixində imzalanmış Səhmlərin Girovu haqqında Sazişə və Korporativ Zəmanətə uyğun olaraq qarşı tərəf 514 ümumi təsdiqlənmiş və buraxılmış səhmdən 340 səhmi və "Palmali"dəki müvafiq iştirak payını yuxarıda qeyd olunan kredit müqaviləsinin yerinə yetirilməsinin təminatı kimi girov qoyub. Bundan əlavə, xam neft və neft məhsullarının nəqli ilə bağlı 20 mart 2008-ci il tarixində SOCAR-ın törəmə müəssisələrindən biri ilə imzalanmış nəqliyyat xidmətləri üzrə müqaviləyə uyğun olaraq, "Palmali" əldə etdiyi və ya əldə edəcəyi ümumi gəlirlər və vəsaitlərdəki bütün hüquq və paylarını SOCAR-ın xeyrinə girov qoyub. Bu girov müqavilələri "Palmali" SOCAR qarşısında öhdəliklərini tam yerinə yetirənədək qüvvədə qalacaq.

# Türkiyə terrorla mübarizədə İsraillə əməkdaşlıq edə bilər

**"Türkiyə son illər ərzində, xüsusilə də İsraillə münasibətlərində "soyuq müharibə"nin hökm sürdüyü dönəmdə terrordan daha çox əziyyət çəkdi. Doğrudur, Türkiyəyə qarşı ASALA və PKK terroru on illərdir davam edir və bu xain basqılar minlərlə insanın həyatına son qoyub. Lakin son dövrlər terrorçular Türkiyəni ürəyindən vurmağa başladılar, baş meydanlarını, mərkəzi şəhərlərdəki, o cümlədən paytaxtdakı dövlət obyektlərini, həmçinin hava limanını da hədəfə almağa başlayıblar.**

## **Sabiq milli təhlükəsizlik zabiti:** "Türkiyə və İsrail xüsusi xidmət orqanlarının birgə fəaliyyəti regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizəyə də müsbət təsir göstərəcək"



Türkiyə hökuməti də hesab edir ki, təhlükəsizlik tədbirlərinin daha da gücləndirilməsinə ehtiyac var. Bu mənada bəzi ekspertlər deyir ki, 7 ildir pozulan münasibətlərdən sonra Türkiyə İsraillə antiterror müqaviləsi bağlaya, terrora qarşı mübarizədə birgə fəaliyyət göstərərsə, böyük uğurlar qazana bilər.

**Uzun müddət təhlükəsizlik orqanlarında çalışmış siyasi təhlilçi Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ankara və Təl-Əvivin təhlükəsizlik xidmətlərinin əməkdaşlıq etməsi terrora qarşı mübarizədə ciddi fayda verə bilər:** "Təbii ki, bu gün İsrail xüsusi xidmət orqanlarının nəqliyyatda, xüsusən də hava nəqliyyatında terrorla mübarizəsi dünyada, necə deyərlər, bir nömrədir. Əsas meyar da ondan ibarətdir ki, təhlükəsizliyə təhdidlə mübarizə məsələsi hətta insan haqlarından da üstün sayılır. Yəni təhlükəsizlik nə qədər baha olsa da, insan həyatı qiymətsizdir. Məhz bu baxımdan Türkiyə təhlükəsizlik qurumlarının İsraillə əməkdaşlıq etməsi mühüm məsələdir. Düşünürəm ki, bu gün Türkiyə və İsrail xüsusi xidmət orqanlarının birgə fəaliyyəti regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizəyə də müsbət təsir göstərəcək. Məlumdur ki, uzun müddət ərzində İsrail bu sahədə böyük təcrübəyə və terrorçularla bağlı geniş məlumat bazasına malikdir".

**Əməkdaşlıq üçün yetəri qədər imkanların olduğunu vurğulayan siyasi şərhçi bir məqamı da xüsusi vurğuladı ki, son bir neçə ili çıxmaq şərti ilə Türkiyə-İsrail münasibətləri heç vaxt həddən artıq gərgin olmayıb:** "İsraili hətta dövlət kimi ilk tanıyan müsəlman ölkəsi məhz Türkiyə olub. İsraildə "Arkadaş" Türk Cəmiyyəti fəaliyyət göstərir. İki dövlət arasında problem əsasən 2010-cu ildə "Mavi Mərmərə" gəmisində baş verən silahlı toqquşmadan sonra yarandı və hər iki tərəf bir-birinə qarşı tələblər irəli sürdü. Bu tələblər üzr istəmək, təzminat və Qəzzanın blokada məsələsi idi. Lakin bir müddətdən sonra bu maddələrlə bağlı razılığa gəlindi və 20 milyonluq təzminat, səfirliklərin fəaliyyətinin bərpası, məhkəmədən imtina, HAMAS-ın Türkiyədə fəaliyyətinin məhdudlaşdırılması və İsrail qazının Avropaya ixrac edilməsi üçün Türkiyənin yardımı məsələsində razılığa gəlindi. Məlumdur ki, hazırda Türkiyə İŞİD-lə, Suriyadakı Bəşər Əsəd rejimi və daxilindəki PKK problemi ilə mübarizə aparmalıdır".

**A.Nağıyev qeyd etdi ki, rəsmi Ankaranın problemləri həddən artıq böyüyüb:** "Fikrimcə, bir müddət əvvəl humanizmi siyasətə dəyişən Türkiyə höküməti kiçik səhv etdi. Bu səhvdən irəli gələrək Türkiyə məcburiyyət qarşısında qaldı, Suriya ilə sərhədləri açdı. Təxminən 3 milyona yaxın suriyalı qaçqın Türkiyə ərazisinə sığınıb. Onlar arasında radikal qruplaşma üzvü olanlar yox deyil. Beləliklə də böyük bir kütlə Türkiyənin əleyhinə olan qüvvəyə çevrilib. Onların da yarısı PKK-nı, yarısı da İŞİD-i dəstəkləməkdədir. Bunun nəticəsində də Türkiyədə vəziyyət getdikcə gərgin xarakter almağa başladı". **Bu mənada A.Nağıyev törədilən terrorun izinin yalnız İsrail-Türkiyə əlaqələrinin bərpasında axtarılmasını doğru saymır:** "Türkiyənin təhlükəsizliyinə təhdid olan bir neçə amil var. Bunlardan biri dini qurumlardır. Türkiyə siyasətində olan bir sıra siyasi partiyaların da terror təşkilatları ilə əlaqəsi var. Digər bir amil Türkiyənin özünün Suriya ilə sərhəd ərazilərində, eyni zamanda öz ərazisində PKK-ya qarşı apardığı antiterror əməliyyatlarıdır. Ümumi götürsək, son zamanlar Türkiyəyə qarşı terror aktları qaçılmaz idi. Türkiyənin ətrafında bu dövləti sevməyən, siyasəti ilə razılaşmayan bir çox dövlətlər var - Ermənistan, Suriya, İraq və İranla problemlər var. Yəni Türkiyə ətraf qonşularla problemsiz dövlət deyil". **Politoloq səslənən versiyaları kənara qoymağı düzgün saymadığını vurğuladı. Lakin buna özəl yanaşmasını da əlavə etdi:** "Doğrudan da bu terror aktı elə bir vaxta təsadüf etdi ki, Türkiyə İsraillə yaxınlaşmağa, eyni zamanda Rusiya ilə münasibətlərini düzəltməyə başlayırdı. Bu, o demək deyil ki, terror həmin günün məhsulu idi. Belə terrorlar aylarla hazırlanır. Terror hadisəsi İŞİD-in dəst-xəttinə uyğundur. Amma bunu da sübut etmək lazımdır. Bir daha qeyd etmək lazımdır ki, İŞİD-lə mübarizə bütün dünyada gedir və İŞİD artıq tənəzzülə uğrayan bir terror təşkilatıdır. Belə bir vəziyyətdə isə bu təşkilat özünü mütləq büruzə verməli və hadisə törətməli idi. Məlumdur ki, Türkiyə siyasi ambisiyaların, siyasi partiyaların üzərində qurulmuş bir dövlətdir. Bununla yanaşı, demək olar ki, Türkiyə ən demokratik dövlətlərdən biridir. Ona görə də burada terror aktı törətmədən də növbədənkənar seçkilər keçirmək olar. Eyni zamanda terror aktını törətməkdə məqsəd hakimiyyətin gücsüzlüyünü nümayiş etdirməkdir. Türkiyədə ərazi iddiasında olan bir sıra qurumlar var ki, bu dövlətin torpaqlarından ərazi alıb orada ikinci bir dövlət yaratmaq istəyirlər. Bu isə birinci növbədə Türkiyə, sonra da İsrailin xeyrinə deyil".

**❑ Cavid TURAN**

# Sorosun mesajlarına müxalifətdən cavab gəldi



**Son günlərdə amerikalı maliyyəçi, inqilabların həyata keçirilməsində mühüm rol oynayan şəxs kimi tanınan Corc Sorosun fəallaşdığı müşahidə olunmaqdadır. İyunun 24-də Londonda "Açıq Rusiya" klubunda müzakirələr zamanı onun Azərbaycan hakimiyyəti barədə dedikləri gündəmə oturub.**

Postsovet ölkələrindən danışarkən Soros Azərbaycan prezidenti və iqtidarı haqqında sərt ifadələrə yer verib, ölkədə repressiyaların aparıldığını vurğulayaraq, Qərbi Azərbaycan hökumətinə dəstək verdiyi üçün qınayıb.

Qeyd edək ki, amerikalı maliyyəçi 2000-ci illərdən etibarən Azərbaycan müxalifəti ilə sıx əlaqə qurub. 2003-2005-ci illərdəki proseslərdə açıq şəkildə demokratik düşərgəyə dəstək verib. Hətta onun o vaxtlar müxalifətə pul ayırması ilə bağlı da fikirlər var idi. Həmin illərdə Sorosun o zamanlar Müsavat başqanı olaraq prezidentliyə əsas iddiaçı sayılan İsa Qəmbərlə Türkiyədə gizli görüşməsi haqqında iddialar ortaya çıxmışdı. 2007-ci ildən siyasətini dəyişən Soros hakimiyyətə yaxınlaşmış, hətta ölkə başçısı ilə görüşmüşdü. Sonralar ölkə iqtidarı ilə münasibətləri pisləşən amerikalı maliyyəçi indi də müxalifətə mesaj göndərir.

Maraqlıdır, Azərbaycan müxalifəti Sorosun mesajını qəbul edib, yenidən onunla əlaqələr quracaqmı?

**ADP sədri Sərdar Cəlaloğlu Sorosun Azərbaycan müxalifətinə dəstək verməsi ilə bağlı fikirlərlə razı deyil:** "Bir qrup adam Sorosun ayırdığı pulları öz aralarında bölüşdürdülər. Bununla da onun müxalifətə heç bir xeyri dəymədi. Bu baxımdan onun müxalifətə dəstək verməsi ilə bağlı deyilənlərlə razı deyiləm. Elə bir dəstəyi ADP olaraq, biz heç yerdən almamışıq, Sorosun özündən belə. Halbuki buna böyük ehtiyacımız olub. Hətta demokratiya ilə bağlı kitabımı yazandan sonra çap üçün 5 min dollar pul lazım idi. Bunun üçün Amerika, Norveç və digər səfirliklərə, o cümlədən Sorosun burdakı və Çexiyadakı ofisinə dəfələrlə müraciət etməyimə baxmayaraq, yardımı ala bilmədim. O zaman məlum oldu ki, Soros təşkilatı demokratiya adı altında özlərinə lazım olan işləri görürlər. Oradan olan məlum adamlar 10-20 min məbləğdə pullar aldılar və demokratiyaya qarşı işlər gördülər. Sorosun indi İlham Əliyevi tənqid etməsi, müxalifətə mesaj verməsi bizdə xəyallar oyatmamalıdır. Kənardan Azərbaycanı tənqid etməyə haqları çatmayanların bunu etmələri, əslinə qalsa, hakimiyyətə müəyyən müsbətlər verir. Öz maraqlarını təmin edirlər. Azərbaycanda demokratiyaya dəstək vermək üçün hakimiyyəti tənqid etməyə ehtiyac yoxdur. Əslində iqtidarla xoş danışmaq lazımdır ki, burada müəyyən şərait yaratsın. Qanuni yolla demokratiyaya dəstək verilməlidir. Məşədi İbad kimi "qapını aç, səni öldürməyə gəlirəm" deməklə kim qapını açar? Kimlər ki, kənardan Azərbaycanı sərt şəkildə tənqid edir, demək, onların ölkəmizdə demokratiyanın bərqərar olmasında maraqları yoxdur. Kimlər ki, iqtidarla yumşaq danışır, demək, Azərbaycanda demokratiyanın inkişafında maraqlıdırlar. Amerika Azərbaycanla yumşaq danışır, amma müxalifət bunu süngü ilə qarşılayır. Bunu anlamaq üçün o qədər də böyük bilik lazım deyil".



**Sərdar Cəlaloğlu:** "Azərbaycanı kənardan sərt şəkildə tənqid edənlərin ölkəmizdə demokratiyanın bərqərar olmasında maraqları yoxdur"



**Əli Əliyev:** "Onun son bəyanatını Amerikanın ölkəmizlə bağlı siyasəti kimi qəbul edirəm"

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev hesab edir ki, Sorosun mesajlarına fərqli kontekstdən yanaşmaq lazımdır:** "Soros təkcə Azərbaycanla deyil, digər postsovet ölkələri ilə işləyən bir iş adamı təsirini bağışlayır. Görünən odur ki, Amerikanın siyasəti belə iş adamlarının timsalında ərsəyə gəlir. Bu baxımdan Sorosun mövqeyinə ABŞ Administrasiyasının mövqeyi kimi yanaşmaq lazımdır. Soros kifayət qədər ciddi fiqurdur. Onun davranışları dünyanın maliyyə sisteminə ciddi təsir edir. Sorosun bəyanatı mənim də diqqətimi çəkdi. Uzun müddətdir ki, o, fəallıq etmirdi. Xüsusilə Azərbaycanda bu fəallıq müşahidə olunmurdu. Amma açıq şəkildə indi belə mövqe sərgiləyirsə, ola bilsin ki, ABŞ Administrasiyası bu yolla Azərbaycana yönəlik siyasətini ayarlayır. Onun son bəyanatını Amerikanın ölkəmizlə bağlı siyasəti kimi qəbul edirəm. Azərbaycan hakimiyyətinə verilən mesajlar təkcə Sorosla bağlı deyil. Xatırlayırsınızsa, bir müddət əvvəl Amerikanın nüfuzlu mətbuat orqanlarında 2013-cü ilin prezident seçkilərində Azərbaycana gəlmiş ABŞ nümayəndələrinə, əsas da konqresmenlərə verilən hədiyyələr gündəmə gətirildi. Qərbin uzun zamandır Azərbaycanda demokratiya və insan haqları məsələsində hakimiyyətdən istəkləri var. Ola bilər Cənubi Qafqazda yaxın zamanlarda Rusiya və Amerikanın maraqlarının toqquşmasının yeni mərhələsi başlasın. Hesab edirəm ki, Sorosun bəyanatı bu silsiləyə daxildir. Bütün bunlar təzyiq mexanizmlərindən biridir. Bu baxımdan Sorosun dediklərinə bir şəxsin mövqeyi kimi yanaşmaq olmaz. Bütövlükdə Qərbin Azərbaycanla bağlı siyasətinin tərkib hissələrindən biridir".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

# Əksər banklar kredit verilməsini bərpa edib

## Lakin şərtlər sərtləşdirilib; "bank sələmi" yalnız rəsmi maaşı olanlara arayış əsasında verilir

**Azərbaycan manatının dollar qarşısında ucuzlaşdığı və növbəti devalvasiya haqqında xəbərlərin dolaşdığı bir vaxtda banklar kreditləri bərpa etməyə başlayıblar. Belə ki, may ayının sonundan başlayaraq, kredit verilməsini dayandıran banklar müştərilərə bildiriş göndərərək yenidən kreditləşməyə başladıqlarını elan ediblər. İyun ayında isə kredit bazarında canlanma müşahidə olunub. Lakin əvvəlkindən fərqli olaraq kredit şərtləri xeyli ağırlaşdırılıb. "Yeni Müsavat" olaraq bəzi bankların kredit şərtləri ilə maraqlandıq.**

"Unibank"dan müsavat.com-a bildirdilər ki, kredit yalnız rəsmi maaşı olanlara arayış əsasında verilir. "Unibank" hazırda yalnız manat kreditləri verir. Bank təkrar müştərilərə kreditləri davam etdirsə də, yeni müştərilərə kreditlərin verilməsini iyun ayından bərpa edib. Bankda kredit tarixçəsinə malik olmayan yeni müştərilərə kredit ayrılması üçün yaş həddi 20-60 və son iş yerində staj minimal 12 ay tələb olunur. Təkrar müştərilər üçün isə yaş həddi 20-65 və son iş yerində minimal iş stajı 6 ay olmalıdır. Bank əmək haqqı 160 AZN-dən yüksək olanlara kredit ayırır. Kreditin müddəti 3-24 ay, məbləği isə 300-5000 AZN arası müəyyən olunur. Kredit götürmək istəyən şəxs şəxsiyyət vəsiqəsi və gəlirləri təsdiq edən sənəd əsasında "Unibank" filiallarından birinə müraciət edə bilər. Gəliri təsdiq edən sənəd qismində iş yerindən arayış, əmək haqqı kartının son 6 ay çıxarışı ya da elektron arayış ola bilər. İş yeri MMC olan müştərilərə kreditlər yalnız elektron arayış və ya son 6 ayın hesabdan çıxarışına əsasən rəsmiləşdirilə bilər. Kreditin ayrılması və ayrılacaq məbləğ aylıq gəlirlər və kredit tarixçəniz təhlil olunduqdan sonra təhlilə əsasən bankda müəyyən edilir.

Bankdan bildirildi ki, kredit məbləğinin təyin edilməsi qaydası Maliyyə Bazarlarına Nəzarət Palatasının tələblərinə tam uyğun həyata keçirilir.

Kredit verilməsi prosesi iki mərhələdə həyata keçirilir. Əgər əvvəllər müştəri istənilən filialdan kredit götürə bilirdisə, indi filiala müraciət edir, daha sonra son qərarı bankın baş ofisi təsdiqləyir. Yalnız bundan sonra müştəriyə birdəfəlik istifadə üçün kredit kartı verilir.

Kredit şərtləri ilə bağlı **"Bank of Baku"** ilə də əlaqə saxladıq. Bankdan bildirildi ki, kredit üçün tələb olunan əsas şərt əmək haqqı kartının olmasıdır. Yeni müştərilərə ilkin olaraq aylıq rəsmi əmək haqqının iki misli məbləğində kredit ayrılır. Məsələn, müştərinin rəsmi əmək haqqı 600 manatdırsa, ona 1200 manat kredit verilir. Kredit faizinə gəlincə, manatla verilən kreditlər 27 faizlə təqdim olunur. Komissiyon haqqı isə verilən məbləğin 1 faizini təşkil edir, yəni 1000 manata 10 manat.

Digər banklarla apardığımız danışıqlardan da məlum oldu ki, kredit şərtləri xeyli sərtləşdirilib. Son iki devalvasiyadan sonra banklar daha mühafizəkar siyasətə başlayıblar. Maliyyə Bazarlarına Nəzarət Palatasının tərtib etdiyi qaydalardan sonra banklar əvvəlkindən daha ehtiyatlı davranırlar. Əgər əvvəllər rəsmi arayış olmadan da kredit verirdilərsə, indi həm əmək haqqı kartı, həm də elektron arayış tələb olunur.

Belə ki, təqdim edən müştərinin başqa borcunun olub-olmaması, xərclərinin əmək haqqına olan nisbəti tam araşdırılır, yeni müştəriyə ilk olaraq 1000 manat, ikinci müraciətində isə 2-3 min manat təqdim olunur.

Gəldiyimiz qənaətə görə, bankların hazırkı dövrdə kreditləri bərpa etməsinin səbəbi isə əmanətlərlə bağlı yaranan stabillikdir. Belə ki, son devalvasiyadan sonra insanlar kütləvi şəkildə əmanətlərini geri çəkdilər və bankların kredit portfeli də sıfıra endi, hazırda isə nisbətən sabitlik yarandığından insanlar evlərdə saxladıqları vəsaitləri yenidən banklara əmanət qoyurlar. Banklar da ən etibarlı müştərilərini seçərək tədricən kredit verilməsini bərpa etməyə başlayıblar.

**Bankların kredit siyasətini təhlil edən iqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan banklarının başlıca gəlir yeri kredit siyasəti olduğundan bunu bərpa etmək məcburiyyətində qalıblar:** "Əgər bank kredit vermirsə, bu o deməkdir ki, gəlirlərinin böyük bir qismindən məhrum olub. Azərbaycan bankları da devalvasiyadan sonra demək olar ki, kreditləşmə prosesini məhdudlaşdırdılar. Bunun nəticəsində də gəlirlərinin böyük bir qismini itirdilər. Əgər biz Azərbaycan banklarının gəlir strukturuna nəzər yetirsək görərik ki, təxminən gəlirlərinin 75 faizi kreditlər hesabınadır. Demək olar ki, kredit verməkdən imtina etdikləri dövrdə banklar gəlirlərinin 75 faizindən məhrum olmuşdular. Belə olduğu təqdirdə, bu, bankların ziyanla işləməsinə gətirib çıxarırdı. Banklar qısamüddətli dövrdə kredit verməni dayandırsalar da manatla olan kapitalları mövcud idi. Ola bilər ki, bəzi banklar mərkəzləşdirilmiş şəkildə manatla dəstək aldıqları üçün manatla kredit vermək prosesinə başlayıblar".

İqtisadçı onu da diqqətə çatdırdı ki, hazırda bankların müştəri kontingenti demək olar ki, yox vəziyyətindədir: "Ölkə vətəndaşlarının böyük bir qismi artıq problemli müştərilər siyahısına düşüblər, çünki son devalvasiyalar problemli kreditlərin həcmini sürətlə artırdı. Digər bir tərəfdən isə Maliyyə Bazarlarına Nəzarət Palatası istehlak kreditləri üçün yeni qaydalar müəyyənləşdirdi və bu yeni qaydalar əsasında ölkə vətəndaşlarının böyük bir qismi kredit götürmə imkanından faktiki olaraq məhrum edildi. Məhz bu yeni qaydaların nəticəsidir ki, kiçik həcmli kreditlərin verilməsində belə müştərilər ciddi şəkildə yoxlanılır. Banklar çox məhdud müştəri kontingenti ilə öz fəaliyyətlərini həyata keçirirlər. Hazırda bankların özləri də ən yaxşı müştəriyə kredit təklifində maraqlıdırlar. Bu baxımdan müəyyən müddətdən sonra banklar arasında ciddi rəqabət başlayacaq. Bu rəqabət isə son nəticədə kredit şərtlərinin müəyyən qədər yumşalmasına, faiz dərəcələrinə, komissiyon xərclərinə səbəb olacaq. Lakin kreditlərin verilməsi qaydaları ilə bağlı bankaların hər hansı bir dəyişiklik etmək imkanı yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

# Dollar dünyanın ən etibarlı valyutasıdırmı...

## İkinci Dünya müharibəsindən bu yana ABŞ valyutası hegemonluq edir...

**Dünyada gedən son iqtisadi proseslər yenə də ABŞ dollarının üstünlük qazanması ilə nəticələndi. Dünya bazarında, eləcə də Azərbaycanda dollar sürətlə bahalaşmaqda davam edir. Son olaraq, Böyük Britaniyanın Avropa Birliyindən çıxma qərarı dünyanın ən güclü digər valyutaları olan avro və funt sterlinqin kəskin dəyər itirməsinə səbəb oldu. Dollarla bağlı verilən proqnozlar isə dünya valyutasının bundan sonra da möhkəmlənməkdə davam edəcəyindən xəbər verir. Bəs görəsən, həqiqətənmi dünyanın ən etibarlı valyutası dollardır? Əhali əmanətlərini daha çox dollarda saxlamağa üstünlük verərsə, bunun nəticəsi necə ola bilər? Qlobal biznesdə dollara təhlükə varmı?**



"Yeni Müsavat"ın sullarını cavablandıran **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, tarixən, əsasən də İkinci Dünya müharibəsindən sonra dünya ticarəti demək olar ki, bütövlükdə dollara keçdi: "Dollar ən stabil və ən güvənli valyutaya çevrildi. ABŞ-ın özünün iqtisadiyyatında bəzi problemlər olsa da, daxili və xarici borclarının həcmi kifayət qədər yüksək səviyyədə olsa da, dünya valyutası statusu aldığından dollara tələb hər zaman olub və bundan sonra da olacaq. Bir anlıq təsəvvür edin ABŞ dollarının cəmi dördə biri Amerikanın öz ərazisində, dördə üçü dünya ölkələrindədir. Dünya ölkələrinin yarıdan çoxunun rezerv ehtiyatları məhz dollarda saxlanılır. Bunu nəzərə alaraq demək olar ki, dollar son onilliklərin ən güvənli valyutasıdır. Son zamanlar yapon yeninə də maraq artıb. Çünki Yaponiyanın milli valyutası da son zamanlar davamlı olaraq dəyər qazanır və investorların böyük marağına səbəb olub. Yapon yenisinə yatırım edənlərin sayı artıb. Ancaq yenə də dollar dünyada liderliyini qoruyub saxlayır".

Bəs bütün dünyada gedən dollarlaşma prosesi son nəticədə yenidən dolların zəifləməsinə gətirib çıxara bilərmi?

**İqtisadçı ekspert bildirdi ki, dolların zəifləməsi və güclənməsi dünya iqtisadiyyatında gedən proseslərdən və Federal Ehtiyatlar Sisteminin (FED) atdığı addımlardan asılı olacaq:** "Təbii ki, dollarlaşma prosesinin yüksək səviyyədə olması müəyyən təhlükələr yaradır. Lakin artıq dünya ölkələri və dünya ticarəti dollardan o qədər asılıdır ki, hətta Amerikada müəyyən problemlər yaşansa da dünya ölkələri Amerikanı ayaqda saxlamaq üçün ona borc verməkdə, dəstək göstərməkdə maraqlı olacaqlar. Məsələn, iki il öncə ABŞ-da defolt səviyyəsinin elan olunması ilə bağlı söhbətlər gəzirdi. Hətta federal hökumət 800 min işçini iki aylıq öz hesabına məzuniyyətə də buraxdı. Çünki büdcədə vəsait çatışmırdı. Çin hökuməti dərhal Amerikaya faizsiz borc təklif elədi, istiqrazlarını almağı təklif elədi. Təkcə Çində 2 trilyon dollara yaxın ABŞ istiqrazlarının olduğu bilinir. Dünya ölkələri artıq Amerikadan o dərəcədə asılı vəziyyətə düşüblər ki, istəməsələr də bu ölkənin ayaqda qalmasına, güclənməsinə çalışırlar, bu yöndə addımlar atırlar.

Ümumiyyətlə, dünyada dollarlaşma səviyyəsinin bu dərəcədə yüksək olması həm də qlobal təhdidlər yaradır. Yeni sabah Amerikada hər hansı bir idarəolunmaz proses başlasa və iqtisadiyyatda müəyyən çətinliklər olsa, 2008-ci ildəki böhrana bərabər dalğalanmalar olsa, təbii ki, bu, bütün dünyaya ciddi şəkildə təsir göstərəcək. 2008-ci il böhranı sübut elədi ki, ABŞ-da yaşanan hər hansı böhran, hətta bank sektorunda və ya tikinti sektorunda yaşanan böhranı bir anda dalğalarla, sunami effekti ilə dünyaya yayılır".

**Azərbaycan vətəndaşlarının vəsaitlərini hansı valyutada saxlamasına gəlincə, N.Cəfərli bildirdi ki, hələlik yaxın bir neçə ildə hər hansı valyutanın dollardan güclü olması ehtimalı çox aşağıdır:** "Hazırda gedən proseslər, funt sterlinqin ucuzlaşması, İsveçrə frankında müəyyən dəyişikliklərin olması, avronun məzənnəsinin qeyri-stabil qrafiklə müəyyən olunması hələlik dolları valyuta ulduzuna çevirib. Azərbaycan vətəndaşlarının öyrəşdiyi valyuta da dollardır. Müstəqillikdən bəri azərbaycanlılarda belə bir təəssürat yaranıb ki, dolların alınması və saxlanılması iqtisadi baxımdan faydalıdır. Biz hətta banklarda olan depozitlərin həcminə baxdıqda da görürük ki, başqa valyutalarla olan depozitlər çox cüzidir, əksər depozitlər məhz dollarla saxlanılır. Ona görə də Azərbaycan vətəndaşlarının dollar güvəni çox yüksəkdir və düşünürəm ki, yaxın gələcəkdə də bu davam edəcək".

❑ **Nərgiz LİFTİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016




Valter Ştaynmayer

# ATƏT sədri bölgəyə həmsədr kimi gəlib həmsədr kimi getdi

## Səfərin nəticə verməməsi təşkilatın Qarabağ məsələsinin həllində gücsüzlüyünü və konkret plana malik olmadığını bir daha ortaya qoydu; **rusiyalı politoloq:** "Münaqişənin həllinə xalq diplomatiyasından başlamaq lazımdır..."

**ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Valter Ştaynmayerin Azərbaycan və Ermənistana səfəri başa çatdı. Təəssüflər olsun ki, ümidlər bəslənilən bu səfər də ATƏT-in Minsk Qrupu həmsədrlərinin növbəti səfərlərindən ciddi heç nə ilə fərqlənmədi. ATƏT sədri Qarabağa dair yeni və önəmli heç bir açıqlama vermədi.**




Səfərlə bağlı yeganə maraqlı detal o oldu ki, Ştaynmayer Xankəndinə getmədi, separatçı rejimin başçısı Bako Saakyanı İrəvanda qəbul elədi və Bakıda Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbərliyi ilə də bir araya gəldi. Lakin konkret təkliflə çıxış eləmədi. Bəs səbəb?

**"Atlas" araşdırmalar mərkəzinin bununla bağlı təhlil yazısında deyilir:** "Birinci ona görə ki, ATƏT-in keçmiş sədrləri kimi hazırkı sədr Almaniya da Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməkdə acizdir. Bunu Valter Ştaynmayerin İrəvan və Bakıda verdiyi açıqlamalar da göstərir. Halbuki aprel döyüşlərindən dərhal sonra Almaniya XİN Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə 7 maddəlik təkliflər paketinin olduğunu açıqlamışdı. Həmin təkliflərin nədən ibarət olduğu aydınlaşmadı, Ştaynmayer də bu məsələyə aydınlıq gətirmədi. Böyük ehtimalla, həmin təkliflər münaqişənin həlli ilə deyil, atəşkəsin qorunmasıyla bağlı olub.

İkincisi, Valter Ştaynmayerin bölgəyə səfəri zamanı verdiyi açıqlamalar da göstərir ki, Berlin ATƏT-ə sədrlik etdiyi müddətdə cəbhə bölgəsində atəşkəsin qorunmasına çalışır. Çünki Ştaynmayerin Bakıda verdiyi açıqlamalardan aydınlaşır ki, Berlin yaxın zamanlarda danışıqlardan nəticə əldə edilməyəcəyi halda bölgədə növbəti eskalasiyanın yarana biləcəyindən ehtiyatlanır. Təsadüfi deyil ki, Almaniyanın xarici işlər naziri atəşkəs rejiminin möhkəmlənməsi üçün lazımi tədbirlər görüləcəyini bildirib. Bu tədbirlər haqqında prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərində də fikir mübadiləsi aparılmışdı. Ancaq rəsmi Bakı ATƏT-in monitorinq qrupunun bir neçə nəfərlə artırılması xaricində "insidentlərin araşdırılması mexanizminin" əleyhinədir, çünki bu Ermənistanın maraqlarına cavab verir və status-kvonun uzanmasına aparır".

**Qurumun təhlilində daha sonra deyilir:** "Üçüncüsü, Valter Ştaynmayer Bakıda Qarabağdan olan məcbur köçkünlərlə görüşündə deyib ki, Berlin Dağlıq Qarabağın azərbaycanlı icmasının Dağlıq Qarabağın erməni icması ilə davamlı görüşlərinin keçirilməsinə çalışacaq. Bu təşəbbüsün reallaşması Azərbaycanın maraqlarına cavab verir. Ermənistan hakimiyyəti hər zaman Dağlıq Qarabağın separatçı liderlərini danışıqlara cəlb etmək istəyir. Rəsmi Bakı bunun əleyhinədir və mövqeyi belədir ki, Dağlıq Qarabağın erməni icması sonrakı mərhələdə danışıqlara qatıla bilər, bundan əvvəl isə Ermənistan qoşunları Azərbaycan ərazilərini tərk etməlidirlər. Bakı Qarabağın azərbaycanlı və erməni icması arasında dialoqun genişlənməsinin tərəfdarıdır. Ancaq İrəvan buna mane olur. Azərbaycan və Almaniya xarici işlər nazirlərinin Bakıda keçirdikləri birgə mətbuat konfransında iki yeni xəbər də diqqəti çəkdi. Birinci xəbər ondan ibarətdir ki, Fransanın Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünü Parisdə təşkil etməsinə dair təklifi var. İkinci xəbər isə odur ki, Rusiya xarici işlər naziri Sergey Lavrov iyulun 4-də İrəvana və Bakıya səfər edəcək. Bu səfərlər və görüşlər hələ ki, münaqişənin həllinə yox, atəşkəsin uzunmüddətli olmasına köklənib".

***

**Bu arada prezidentlərin Vyana və Sank-Peterburq görüşlərinin yekunu ilə bağlı ekspert dairələrindən müxtəlif şərhlər gəlməkdə davam edir.**

"Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburqdakı görüş faktının özü müsbət qiymətləndirilə bilər. Hər halda tərəflər yüksək səviyyədə görüşüb dialoq aparmağı bacardılar". Musavat.com-un məlumatına görə, bu barədə **rusiyalı ekspert Andrey İvanovun vesti.az-a ünvanlandığı məqaləsində deyilir.**

**Politoloqa görə, görüş göstərib ki, Moskva Dağlıq Qarabağ konfliktinin nizamlanmasında maraqlıdır:** "O ayrı məsələdir ki, hələlik heç kim bilmir ki, problem qəti şəkildə necə həll eləmək olar. Hələlik danışıqlar əfsus ki, dalan istiqamətində gedir. Hamı sülh və sabitliyin vacibliyindən danışır, amma heç kim bilmir ki, prinsipial ziddiyyətləri necə aradan qaldırmaq olar. Ona görə də görüşün əsas nəticəsi kimi mən postsovet məkanında Qərbin - ABŞ və Avropa Birliyinin deyil, məhz Rusiyanın aparıcı rol oynamasının bütün münaqişə tərəflərinin dərk etməsini görürəm".

**Onun fikrincə, müharibədənsə pis sülh daha yaxşıdır:** "Bəli, hamı üçün məqbul həll variantı yoxdur. Ancaq müharibədənsə, status-kvonu saxlamaq daha yaxşıdır. Əlbəttə ki, Bakı və İrəvan görüşün konstruktiv keçdiyini bəyan ediblər. Başqa nə deyilməli idi ki? Hər halda, danışıqlar hərbi əməliyyatlardan yaxşıdır".

**Rusiyalı təhlilçi indiki yanaşmalar fonunda münaqişənin həllini qeyri-mümkün sayır, ancaq çıxılmaz da hesab eləmir.** "Fikrimcə, tərəfləri yaxınlaşdırmağın yeganə yolu - aşağıdan başlamaqdır, yəni xalq diplomatiyasıdır. Həm də ortaq iqtisadi layihələrlə möhkəmləndirilmiş xalq diplomatiyası. Bakı və İrəvanda başa düşməlidirlər ki, konflikt regionunda iqtisadi əməkdaşlığı inkişaf etdirmək vacibdir. Sərhədlərin götürülməsi və Dağlıq Qarabağın erməni əsilli sakinlərinin mərhələli şəkildə Azərbaycanın ümumi mədəni və hüquqi sahəsinə cəlb edilməsi üzrə dəqiq plan irəliyə doğru böyük bir sıçrayış olardı. Başa düşürəm ki, mənim ideyam çoxuna utopik görünə bilər. Ancaq dünyada etnik narazılıqların iqtisadi inkişaf perspektivi qarşısında unudulduğuna dair çoxsaylı nümunələr var. Sovet dönəmində də narazılıqlar olub, ancaq insanlar, hər halda, yola gediblər. İndinin özündə Moskvada çoxlu, o cümlədən iri firmalar var ki, orada eyni vaxtda ermənilər və azərbaycanlılar tərəfdaşdırlar, ortaq sərmayəçidirlər" - politoloq vurğulayıb.

**Ekspert bu xüsusda təklifini bir az da konkretləşdirərək deyib:** "Düşünürəm ki, Bakı və İrəvandan ötrü birinci vəzifə Dağlıq Qarabağda xüsusi iqtisadi zonanın, önləyici inkişaf zonasının yaradılması üzrə proqramın hazırlanması olmalıdır. Qoy bu bölgənin hansısa xüsusi ərazi status olsun. Necə ki, 1-ci Dünya müharibəsindən sonra Qdansk şəhərinin sərbəst şəhər statusu olub. Dağlıq Qarabağ qeyri-stabil bölgədən xalqların uğurlu əməkdaşlıq elədiyi bölgəyə çevrilməlidir. Məncə, bundan hamı udacaq. Əlbəttə ki, belə bir təşəbbüsü Moskva da dəstəkləyərdi".

***

Ancaq problem ondadır ki, Azərbaycanın ən optimal, ən məqbul status təklifinə, ortaq inteqrasiya təşəbbüslərinə erməni tərəfi daima maksimalist mövqe sərgiləməklə cavab verib. Nəticədə altını da ən çox elə özləri çəkir, həm Ermənistan, həm də Dağlıq Qarabağ ermənilərinin iqtisadi-sosial durumu daha da ağırlaşır. Son olaraq Azərbaycan prezidenti İlham Əliyev Dağlıq Qarabağa Azərbaycanın tərkibində Naxçıvanın statusuna bərabər status verilə biləcəyini mümkün saydığını bəyan eləmişdi...



Artyom Akopyan

# Erməni rejissordan Sərkisyan rejiminə üsyan

**"Bir dəqiqə də olsun belə Ermənistanda qalmaq istəmirəm. Burada heç bir qanun işləmir, Ermənistanın heç bir vətəndaşı qorunmur, burada sadəcə bizi saymayan, son damla qanımızı içməyə hazır olanlar var. Xalqın əksər hissəsi artıq onlara bənzəyərək vampirlərə çevrilib, hamını dişləyib və yoluxdurublar".**

Bunu Ermənistanda məşhur prodüsser, rejissor, televiziya aparıcısı və "Yeni ermənilər" Şən və Hazırcavablar Klubu komandasının iştirakçılarından biri olan Artyom Akopyan facebook səhifəsində yazıb (Anspress). Artıq Akobyan evini satışa çıxararaq, ölkədən mühacirət etmək haqda qərarını açıqlayıb. Akopyan uşaqlarını Ermənistan kimi ölkədə tərbiyə edib, böyüdə bilməyəcəyini qeyd edib.

"O ölkədə ki, savadsızlıq və zövqsüzlük dəbə diktə edir, o ölkədə ki, bütün müğənnilər yalnız toylar üçün mövcuddur, televiziyanın efirində isə hələ yolunmuş qaşlarla zərif oğlan olmayanadək reytinqin olmayacaq, harada ki, siyasətçi söyüş söyməyənədək sakitləşməyəcək, harada ki, hamı hər şeyə tüpürür, kimdəsə bədbəxtlik baş verəndə sevinir... orada yaşamaq istəmirəm", - deyə Akopyan bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

# İŞİD dünyanı təhdid edəcək gücdədirmi…

## Terror təşkilatının "terror qrafiki" heyrət doğurur; **Elxan Şahinoğlu:** "Sonlarını yaxınlaşdırırlar"


Elxan Şahinoğlu

**Atatürk Hava Limanındakı partlayışdan bir neçə saat sonra İŞİD-in dünya üzərindəki gücünü göstərən qrafik və xəritəsi yayılıb. Bu barədə lent.az türk mətbuatına istinadən məlumat yayıb. Qrafiki İŞİD-lə əlaqəli olan "Amaq" xəbər agentliyi yayıb. Xəritədə terror təşkilatının güclü olduğu bölgələr də təqdim olunur.**

Məlum olur ki, İŞİD-in ən çox təhdid etdiyi ölkələr sırasında qardaş Türkiyə də var. Qrafikdə terror qruplaşmasının təsir gücü 3 hissəyə bölünüb.

1-ci hissədə İŞİD-in tam nəzarətində və gizli məkanların olduğu bölgələr göstərilir. Qrafikdən belə məlum olur ki, bu bölgələr Suriya və İraqdır. Və ən çox da burada fəaliyyət göstərirlər.

2-ci hissədə orta dərəcədə nəzarət edilən yerlər qeyd edilir. Burada artıq 10 ölkənin adı çəkilir. Bu dövlətlər Orta Asiyada Əfqanıstan, Yəmən, Afrikada Somali, Nigeriya, Niger, Şimali Afrikada Misir, Liviya, Şərqi Avropada Çeçenistan, Dağıstan, Uzaq şərqdə isə Filippindir.

3-cü hissədə İŞİD-in gizli fəaliyyət göstərdiyi 7 ölkənin də adı sıralanır. Və bunların çoxu son vaxtlarda terror təşkilatının hədəfi olub. Həmin ölkələr Səudiyyə Ərəbistanı, Türkiyə, Əlcəzair, Fransa, Tunis, Livan, Banqladeşdir.

Bundan əlavə, ingilislərin "Daily Mail" qəzetinin internet saytında İŞİD-in hədəfində və ən çox təhlükəli olan ölkələrin xəritəsi yer alıb. Bunlar Türkiyə, Rusiya, Böyük Britaniya, Almaniya, Fransa, İspaniya, Mərakeş, Əlcəzair və Tunisdir. Xəritədə İtaliya, İslandiya, İsveç və Yunanıstan əsasən risk altında olan ölkələr kimi qeyd edilir.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, hazırda dünyada İŞİD qədər ikinci güclü terror təşkilatı yoxdur:** "Onların torpaq əraziləri, böyük gəlirləri, 30 mindən çox silahlı qruplaşması var. Terror təşkilatı kimi bu qədər imkanlara sahiblənib. Amma son zamanlar onları İraq və Suriya tərəfdən ciddi şəkildə sıxışdırırlar. İraq tərəfdən müəyyən ərazilər itiriblər. Özləri də bilirlər ki, heç kim onlardan əl çəkən deyil. Çünki bütün dünyaya təhlükə yaradırlar. Birlik olmasa da, müəyyən koalisiyalar var ki, İŞİD-ə qarşı mübarizə aparırlar. İraq ordusu var, Rusiya bombalayır, Türkiyə ciddi şəkildə mübarizə aparır, Amerika koalisiya yaradıb. İŞİD yaxşı bilir ki, sonu yoxdur. Gələcək məğlubiyyətlərini gördükləri üçün fəaliyyətlərini müxtəlif istiqamətlərə sızdırmaq istəyirlər. İstanbulda son olaraq partlayış törətdilər. Bundan əvvəl Paris və Brüsseldə partlayış törətdilər. Düşünürlər ki, əraziləri əllərində saxlaya bilməsələr, bütün dünyaya səpələnsinlər. Bu yolla bütün bəşəriyyətə problemlər yaratsınlar. Əsas hədəfləri odur. Düzdür, əraziləri hələ ki əllərində saxlaya bilirlər. Amma böyük koalisiya yaradılsa, onları acı tale gözləyir. "Əl-Qaidə" terror təşkilatı vaxtilə İŞİD qədər olmasa da, güclü idi. Amma indi "əl-Qaidə" lideri öldürülüb, təşkilat üzvləri isə qayalarda gizləniblər. Bir gün bu tale İŞİD-i də gözləyir. İŞİD-in başbilənləri bu taleni yaşamasalar da, əvvəlcədən duyublar. Dünyaya səpələnərək, qorxu yaratmağa çalışırlar. Əsas strategiyaları budur. Xəritələrin yayılması və digər vasitələrlə. Bu cür xəritələr yaymaqla, əslində sonlarını yaxınlaşdırırlar. Türkiyənin mərkəzində terror törətdilər. İndiyə qədər Türkiyəni ən çox Rusiya İŞİD-ə qarşı fəal mübarizə aparmamaqda qınayırdı. Amma İstanbulu vurmaqla İŞİD böyük xətaya yol verdi. Türkiyə istər-istəməz terror təşkilatına qarşı mübarizəni genişləndirəcək".

**Politoloq barışıq tez əldə olunsa, Türkiyə və Rusiya arasında İŞİD-ə qarşı birgə mübarizə aparmaqla bağlı koalisiyanın yaradılmasının mümkünlüyündən də söz açdı:** "İŞİD-in vəziyyəti getdikcə gərginləşir. Çünki ona qarşı koalisiyanın sərhədləri genişlənir. Amma İŞİD o qədər azğın təşkilatdır ki, üzvlərinin hamısını ölümə göndərər, təki dünyanı vahimədə saxlasın. Bu mübarizə hələ çox vaxt aparacaq. Əgər Parisin göbəyində, Brüssel və İstanbulda partlayışlar törədirsə, demək, İŞİD üçün sərhədlər yoxdur. İstənilən məsafəni qət edib, istədiyi məsafəni vurmağa qadirdir. Bu baxımdan İŞİD-in güclü olduğunu dana bilmərik".

❑ **Cavanşir ABBASLI**

---

# Terror zamanı özümüzü necə qoruyaq?

## Sağ qurtulmanın ilginc yolları, aeroportdakı davranış qaydaları barədə bilmədiklərimiz

**Yenə terror, yenə Türkiyə, yenə aeroport. Türkiyənin turizm sahəsində bəzi əngəlləri aradan qaldırdığı bu günlərdə İstanbul aeroportunda baş verən terror yenidən bu mövzunu aktual edib.**

### Hansı aeroportlar daha təhlükəsizdir?

"Yeni Müsavat" bugünlərdə səfər edəcək və ya belə bir ehtimalı olanların da marağını nəzərə alıb, geniş bir dosye hazırlayıb. Aeroportlarda, terror ehtimalı olan məkanlarda bu dəhşətdən qorunmanın, müdafiə olunmanın yolları nələrdir?

Öncə ondan başlayaq ki, 2016-cı ilin əvvəlindən etibarən Avropada İŞİD-in terror əməllərinin sayı-hesabı yoxdur. Bunların böyük əksəriyyəti də böyük aeroportlarda baş verir. Amma bu məqamda diqqət təhlükəsizlik qaydalarına yönəlir.

**Türkiyənin Hava Limanları Yönetim Qurumunun rəhbəri Sani Şener** Türkiyə mediasına verdiyi müsahibəsində deyib ki, Türkiyədəki aeroportlar Avropadakılardan daha təhlükəsizdilər. Senerin sözlərinə görə, Türkiyədə və dünyada aeroportların təhlükəsizliyi birmənalı şəkildə dövlətləri idarə edən şəxslərin əlində olsa da, icraedici orqan kimi özəl təhlükəsizlik xidmətləri baş rolda görünür: "Avropadakı terminal binaların girişində 'x-ray' cihazları yoxdur, sərnişinin üzərində heç bir axtarış əməliyyatı aparılmır. Hər kəs aeroport binasının içinə girə bilir. Amma Türkiyə aeroportunun girişində axtatış aparılır, "x-ray'lar çalışır və orada bizim özəl təhlükəsizlik xidməti əməkdaşlarımız dayanır. Hətta biz də Avropa ilə ayaqlaşmaq üçün bir müddət təhlükəsizlik tədbirlərini azaltmağı düşünürdük. Hətta bununla bağlı təhlükəsizlik komissiyasının qərarına əsasən, İzmirdə ilk girişdəki "x-ray'lar götürülmüşdü. Bu, sərnişin axınının sürəti ilə, rahatlığı ilə bağlı idi. Amma sonra terror olayları ciddi şəkildə artdığı üçün İzmirdəki "x-ray"ları yenidən bərpa etdik".

**Şener eyni zamanda bildirib ki, Brüsseldəki terror olayından sonra Dünya Aeroportları Birliyinin baş katibi onunla danışıb və "x-ray'larla bağlı suallar verib. İlk sualı isə "növbələr uzun olurmu" olub:** "Məndən "x-ray"lardan sonra da təhlükəsizliklə bağlı hər hansı axsama ola biləcəyini soruşdu. Mən də bildirdim ki, bu, idarə oluna bilər. Yəni bu, illərdir Türkiyədə var, əsas məsələ sərnişinin təhlükəsizliyi, sonra komfortudur. Məsələn, əvvəl bu "x-ray'lara hirslənən bəzi sərnişinlərimiz indi durumdan məmnundular.

**Şener müsahibəsində eyni zamanda Türkiyədəki aeroportları Avropadakılarla müqayisə edib. Deyib ki, Türkiyə aeroportları daha**



**etibarlıdır:** "Çünki bölgəmizdəki vəziyyətə, Türkiyənin geopolitik durumuna görə ətrafımızda nələr olduğunu görürük. Çox ciddi sıxıntılar var, Türkiyədə bir çox terror hadisəsi baş verib, içimiz yanıb. Təbii ki, buralarda çox ciddi problemlər olduğu üçün bizdə onsuz da təhlükəsizlik tədbirləri gücləndirilmişdi. Avropa ilə müqayisədə bu girişdəki "x-ray'ların olması çox önəmli bir hadisədir".

### Baş nazir narazıdır, nə etməli?

Türkiyədəki aeroportlardakı təhlükəsizlik tədbirləri isə mərhələ-mərhələ, aşağıdakı kimi həyata keçirilir: sərnişin girişdəki "x-ray'lardan keçir, ondan sonra baqajlarını təhvil verir, o baqaj aşağıdakı yük axtarma hissəsində tomoqrafiya cihazlarından keçir. Pasport yoxlama şöbəsindən keçdikdən sonra isə əl çantası bir daha axtarılır. Sərnişin ancaq bundan sonra keçidlərə doğru gedə bilir.

Türkiyənin baş naziri Binəli Yıldırım isə son partlayışdan sonra bildirib ki, aeroportda "x-ray" intereskoprentgen aparatı və fiziki yoxlanış terror hadisəsinin qarşısını almağa kifayət etmir. Kənarda silahlı basqınlara qarşı da tədbirlər görülməlidir. Aeroportların giriş və çıxışlarında xüsusi təlim görmüş təhlükəsizlik işçilərinin sayını artırmaq lazımdır.

B.Yıldırımın sözlərinə görə, böyük ehtimalla terror aktını İŞİD terror qruplaşması törədib.

### Terror zamanı sağ qalmanın yolları

Hazırda isə başda azərbaycanlılar olmaqla, dünyada milyonlarla insanın yolu Türkiyədən keçir. İstirahət, səyahət, iş məqsədilə. Bu hava səfəri zamanı diqqət edilməsi vacib olan bəzi məqamlar var.

Yaxşı, bəs terror ehtimalında sağ qalmanın yolları nələrdir? Bu barədə də mütəxəssislər danışıb. Onların fikrincə, bu məqamda ediləcək şey insanın öz-özünə "bir şey baş versə, ilk reaksiyam nə olmalıdır" sualını verməkdir. Olduğunuz aeroportda təcili çıxış qapılarının harada olduğunu müəyyənləşdirin. Təcili reaksiya verin və bir-birinizə kömək edin. Bir hücum zamanı insanların çoxu heç bir şey etməyəcək qədər şoka girir. Psixoloqlara görə, o anda qərarlı davranmaq sağ qalma şansını artırır. Amma öncə digərlərinin hərəkətə keçməsini gözləmək də insanın təbiətində olan bir özəllikdir. Kütlə psixologiyası ilə bağlı mütəxəssis olan Kris Cockingə görə, başqaları ilə əməkdaşlıq etmək insanın həyatda qalma şansını artırır. Məsələn, Brüssel aeroportunda çalışan Antoni də belə edib. Mart ayında baş verən partlama zamanı o da partlayışın meydana gəldiyi yerdən, sadəcə, 20 metr uzaqlıqda olub. O, qaçmaq üçün baqaj yükləməkdə istifadə edilən, hərəkət edən aparata hoppanıb və həmin yerdən uzaqlaşıb.

İkinci əsas məsləhət: özünüzü daha kiçik bir hədəf halına gətirin. Ortadan çəkilməyə və özünüzü önəmsiz biri kimi hiss etməyə çalışın. Bunun üçün ən asanı özünüzü yerə atmaq ola bilər. Amma ideal olanı özünüzü qoruyacaq bir yerin arxasına saxlanmaqdır. Ən yaxşı variant beton divardır.

Qələbəlik bir yerdə terror hücumu olarsa, tək bir güllə belə çox sayda insanı yaralaya bilər. Ona görə də ortada dayanmamaq, özəl olaraq hədəf alınma riskini və silahlının güllələrinə hədə olma ehtimalını azaltmaq mümkündür.

Özünüzü ölülüyə vurmaq da həyatınızı xilas edə bilər. Bəzi situasiyalarda ən yaxşı variant isə qaçmaqdır. İngiltərə hökuməti təhlükəsiz bir qaçış yolu varsa, qaçmağı, yoxdursa, gizlənməyi tövsiyə edir.

Hücum edən şəxslə mübarizə etmək lazımdır? Bu da insanları ən çox düşündürən suallardandır. Ümumiyyətlə, silahlı hücumlar zamanı bəzən hücumçuyla mübarizə aparmaq nəticə verir. Təhlükəsizlik firması rəhbəri Klan Reed isə bildirib ki, bu sahədə təcrübəsi və savadı olmayan insanların hücumçularla mübarizə etməsi heç də yaxşı fikir deyil. "Ancaq və ancaq öz həyatınızı təhlükə altına atmış olarsınız".

Hücumçuların əsasən komanda halında hərəkət etdiyini də unutmaq olmaz. Bəziləri qoruyucu geyinir, bəziləri partlayıcı daşıyırlar.

Baş verəcək təhlükələrə qarşı mübarizə aparmaq da lazımdır. Amma terror yerindən qaçmağa nail olanlar yenə də tətikdə olmağa davam etməlidirlər. Mütəxəssis məsləhəti belədir: **"Mümkün olduqca uzağa qaçın, sağlam bir yerə saxlanmağa çalışın və kömək üçün ən yaxın yetkiliyə müraciət edin".**

Ətrafdakı böyük qruplara qatılmaz və ictimai nəqliyyatdan istifadə cəhdi isə təhlükəlidir: **"Hər zaman üçün ikinci bir bombanın və ya aksiyanın planlanmış ola biləcəyini hesablayın. Burada əsas məsələ vəziyyət haqqında daha çox məlumatlı ola biləcək polis yetkililərinin və digər vəzifəlilərin tövsiyəsinə müraciət etməkdir".**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

**"Baltika-Bakı" şirkəti avqustun 15-dən istehsalı müvəqqəti dayandıracaq. Bununla bağlı şirkətin yaydığı məlumatda bildirilib ki, Azərbaycanda pivə bazarında ağır vəziyyətin yaranması nəticəsində 2015-ci il ərzində bazarın həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 20%, 2016-cı ilin ilk rübü ərzində isə daha 35% azalıb və bu tendensiya davam etməkdədir.**

# "Baltika-Bakı" istehsalı niyə dayandırır?

## "Bu, çox ciddi bir siqnaldır, yüzlərlə vətəndaş iş yerini itirmək üzrədir"

Şirkət həmçinin istehsalı dayandırmasını onunla əsaslandırır ki, onların biznesinə eyni zamanda qanunvericiliyin nizamlanması da təsir göstərir:

"Cari ilin ikinci rübündə suyun tarifikasiya sistemi dəyişilib, bu isə yalnız 2016-cı il ərzində istehsalat xərclərinin 500 min manat artmasına gətirib çıxaracaq. Eyni zamanda sentyabrın 1-dən aksiz markası ilə markalanmalı olan malların nağd vəsaitlə dövriyyəsini qadağan edən və mütləq şəkildə öncədən ödəmə tələb edən qanun qüvvəyə minir, bu isə şirkət üçün öz məhsulunun realizasiyasını olduqca çətinləşdirir. Qanuna tabe olan və dövlətin "vergi partnyoru" statusuna malik olan "Baltika-Bakı" dövlətin hesablaşmalar və məhsul dövriyyəsinin şəffaflığını artırmaq üzrə səyini dəstəkləyir. Lakin hazırkı şəraitdə əlavə nizamlama metodları və şirkətlərin iqtisadi azadlığını məhdudlaşdırma ölkədə biznesin inkişafına olduqca neqativ təsir göstərəcək və xüsusilə də pivə dövriyyəsi sahəsinin katastrofik ixtisarına gətirib çıxaracaq", - deyə şirkətdən bildirilir.

Şirkətin fəaliyyətini dayandırması isə ölkədə yüzlərlə adamın iş yerini itirməsi deməkdir. Belə ki, dünyada ən iri pivə istehsalçılarından olan "Carlsberg Group"un bir hissəsi və Azərbaycanda pivə bazarının 75%-dən çox hissəsinə malik olan "Baltika-Bakı" ölkənin qeyri-xammal sektorunun ən iri müəssisələrindən hesab olunur. Zavodun istehsal gücü ildə 10 milyon dekalitr təşkil edir. Şirkətdə 250 işçi və 400 vasitəçi *(distributor, agentlik, icraçı)* çalışır. "Baltika-Bakı" şirkətinin dövlət büdcəsinə illik ödəmələri 20 mln. manat, zavodun inkişafına ayırdığı ümumi investisiya isə 47 mln. manat təşkil edir.

İddialar var ki, son zamanlar "Baltika-Bakı"nın istehsal etdiyi məhsullar bazarda keyfiyyətinə görə rəqabətə uduzurdu.

**İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a bildirib ki, şirkətin bu addımı atmasında bir neçə səbəb var:** "Adicə suyun qiymətinin qalxması şirkətin xərclərinin nə qədər çoxalmasına səbəb olub. Eyni zamanda iri şirkətlərə ilin əvvəlindən ciddi şəkildə vergi yükünün qoyulması və çoxlarından da ilin sonuna qədər öncədən ödəniş edilməsinin xahiş və tələb olunması bu kimi hallarla nəticələnir. Vergilər Nazirliyi ilin əvvəlində öncədən ödəniş tələb etdiyi üçün də II, III rüblərdə ciddi problemlər ortaya çıxır. Yay mövsümündə, tələbatın çox olduğu zamanda pivə zavodunun




belə bir addım atması təbii ki, daha dərin problemlərin olduğundan xəbər verir. Heç bir iş adamı satışların həcminin artması gözlənilən mövsümdə bu addımı atmazdı. Qeyd etdiyim kimi, görünür, ciddi məqamlar var. Zavodun fəaliyyətinin dayanmasından sonra yüzlərlə adam işsiz qalacaq. İndiki dövrdə, böhran vəziyyətində dünyanın bütün ölkələrində biznesə rahat şərait yaradılması ilə bu durumdan çıxış yolları axtarılır. Azərbaycanda isə bu tərsinədir. Büdcə problemini biznesin üzərinə getməklə, daha böyük vergi yükünün qoyulması ilə həll etmək istəyirlər. Bu da doğru yol deyil. "Baltika-Bakı"nın fəaliyyətini dayandırmasını açıqlaması, hesab edirəm ki, çox ciddi bir siqnaldır. Gələcəkdə də buna bənzər hadisələrin olması ehtimalı çox yüksəkdir. Doğrudur, bundan öncə də bu kimi hallar olub. Ancaq o zaman müxtəlif şirkətlərin ticarət nümayəndəliklərinin bağlanmasının şahidi olduq. Bütün bu hallar onu göstərir ki, ölkədə ciddi iqtisadi böhran yaşanır və şirkətləri vurur".

**Ekspert şirkətin rəqabət bazarında uduzması ilə bağlı səslənən iddialara da fikir bildirib:** "Bazarda yerli istehsal baxımdan o qədər də böyük "oyunçu"lar yoxdur. Kimsə kimsənin bazardakı payına daxil olmur. Bu baxımdan şirkətin yerli istehsalçılar arasında rəqabətindən söhbət gedə bilməz. Doğrudur, xarici istehsalçılar bazarda çoxdur. Lakin onların da məhsullarının qiyməti bahadır. Bu baxımdan da qiymət məsələsində şirkət bazarda uduzmurdu. Ona görə də hesab edirəm ki, problem yuxarıda sadaladığım məsələlərlə bağlıdır".

Məlumat üçün onu da bildirək ki, Azərbaycanın Xırdalan şəhərindəki pivə zavodu 1969-cu ildə istismara verilib. O zaman zavod "Bakı-Pivə" İstehsalat Birliyinə məxsus olub. Həmin dövrdə "Xırdalan" SSRİ-nin altı ən iri pivəçəkmə müəssisələrindən biri olub. 1997-ci ildə zavod Fransanın "Group Castel" Konserninin idarəsi altına keçib, iki il sonra isə müəssisədə irimiqyaslı rekonstruksiya işləri başa çatdırılıb. 2000-ci ildən zavodda "Xırdalan" pivəsinin istehsalı başlanılıb. Lakin 2008-ci ildən etibarən "Baltika" şirkəti ilə "Brasseries Internationales Holding (Eastern) Ltd (BIH Eastern)" şirkətlər qrupu arasında Xırdalandakı pivə zavodunun alınması barədə razılaşma imzalanıb. Azərbaycanın antiinhisar orqanları tərəfindən sövdələşmə bəyənildikdən sonra zavod "Baltika" şirkətinin sərəncamına keçib. 2009-cu ilin əvvəlindən zavodun adı dəyişdirilərək "Baltika-Bakı" adlandırılıb.

Baş verənlərlə bağlı daha detallı məlumat almaq üçün şirkətlə əlaqə saxladıq. Şirkətdən bildirdilər ki, suallarımıza cavab vermək üçün rəsmi şəxslərdən kimsə ofisdə yoxdur.

❑ **Əli RAİS**

# Yayda yol qəzalarının artmasının səbəbləri





## Ekspertin sözlərinə görə, hərəkətliliyin artması, sürücülərin hava şəraitini nəzərə almadan yola çıxmaları qəzaları çoxaldır

**Yayın gəlişi ilə yollarda avtomobil qəzalarının sayı artmağa başlayıb. Statistikaya nəzər yetirəndə görürük ki, bu qəzaların əksəriyyətinin sonu ölümlə nəticələnən ağır yol hadisələridir. Bugünlərdə Şəmkir yolunda baş verən ağır yol-nəqliyyat hadisəsi 4 nəfərin ölümünə, 4 nəfərin isə ağır yaralanmasına səbəb oldu. Daha bir ağır - üç nəfərin ölümü ilə nəticələnən yol qəzası Sumqayıtda baş verdi.**

Demək olar ki, hər il yay aylarında ağır yol qəzalar artır.

Bəs bunun səbəbi nədir?

Ekspertlər bildirir ki, yollarda sürücülərin sürət həddini aşması, ötmə, manevretmə və qarşı hərəkət zolağına çıxma, nəqliyyat vasitələrinin yolun hərəkət hissələrində yerləşməsi qaydalarının pozulması, sərxoş vəziyyətdə avtomobil idarə etmək bu cür hadisələrin baş verməsinə səbəb olur.

**Hüquqşünas, yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov** mövzu ilə əlaqədar "Yeni Müsavat"a açıqlamasında deyib ki, bunun əsas səbəblərindən biri yay vaxtı yollarda hərəkətliliyin artmasıdır: "Müqayisə etsəniz görərsiz ki, qış, payız aylarında yollarda daha az avtomobil görünür, nəinki yayda. Yayda meyvə-tərəvəzin əkilib becərilməsi, məhsulun yığılıb bazara, kənddən şəhərə çatdırılması prosesi olur. Və yaxud gənclər rayonlara qayıdır, istirahətə gedən çox olur, insanlar daha çox yayda tikinti işləri ilə məşğul olur və sairə. Yay vaxtı əsas qəzaların daha çox olması bununla bağlıdır.

Digər səbəblər də var. Bəzi sürücülərin yorğunluğu, isti hava şəraitini, avtomobillərində havalandırıcı sistemin normal vəziyyətdə olub-olmamasını nəzərə almadan yola çıxması, aqressivlik, səbirsizlik göstərməsi və sairə ağır qəzalara səbəb olur. Sürücü hazırlığı deyəndə avtomobili necə idarə etmə qaydalarını bilmək yetərli deyil, təhlükəsizliklə bağlı aydın düşüncələr olmalıdır. Sürücüklə bağlı aydın, dəqiq təfəkkürü olmayan sürücü istənilən vaxt qəza törədə bilər. Təchizatı, texnikasında problemi olan avtomobillə yola çıxmaq olmaz. Çıxdınsa, deməli, risk edirsən. Bu da faciəyə gətirib çıxara bilər".

**Ərşad Hüseynov həmçinin qeyd etdi ki, piyadalar da əksər hallarda qəza şəraiti yaradır:**

"Xüsusən yaşayış məntəqələri ərazisində yayda piyadaların sayı çox olur. Qışa nisbətən yayda daha çox bayıra çıxır, gəzməyə gedirlər. Lakin piyada kimi də yol hərəkəti qaydaları ilə bağlı düşüncələrimiz zəifdir. Kənd yerlərində heyvandarlıqla məşğul olanlar yol hərəkəti qaydalarını pozurlar. Məsələn, bu yaxınlarda bir avtomobil qoyun sürüsünü vurdu. Belə məlum olur ki, bəzi bu cür təsərrüfatla məşğul olanların yol qaydalarından aydın anlayışı yoxdur. Asfaltda qoyun sürüsünün nə işi var? Bunu qanun qadağan edir axı. Hər şeydə düşüncəmiz, təfəkkürümüz dəyişməlidir, başqa yol yoxdur.

Eyni zamanda yol hərəkətinin təşkilində də müəyyən problemlər var. Məsələn, yol nişanlarının qoyulması, yolun işıqlandırılması ilə bağlı və sairə. Bəzi məsələlər də var ki, onlar da həll olunmalıdır".

Qeyd edək ki, bu ilin 5 ayı ərzində respublika ərazisində 732 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, bunun da nəticədə 242 nəfər həlak olub, 797 nəfər yaralanıb. Bu barədə Baş Dövlət Yol Polisi İdarəsi məlumat yayıb. Məlumata görə, Bakı şəhəri ərazisində 268 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, bunun da nəticəsində 58 nəfər həlak olub, 290 nəfər yaralanıb.

Respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin 38,3%-i (281 hadisə, 91 ölüm, 311 yaralı) ötmə və qarşıdan gələn nəqliyyatın yoluna çıxma, 24,7%-i (181 hadisə, 74 ölüm, 159 yaralı) nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, 13,1%-i (96 hadisə, 21 ölüm, 127 yaralı) yolayrıclarını keçmə qaydalarının pozulması, 1,9%-i (14 hadisə, 3 ölüm, 20 yaralı) nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən baş verib. Yol-nəqliyyat hadisələrinin 42,7%-ni (313) piyadaların vurulması təşkil edib, nəticədə 106 piyada həlak olub, 229-u yaralanıb.

13 yol-nəqliyyat hadisəsi isə piyadaların yol hərəkəti qaydaları pozmaları nəticəsində baş verib. Respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisəsi nəticəsində 13 nəfər uşaq və yeniyetmə həlak olub, 61 nəfər yaralanıb.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 144 (6465) 2 iyul 2016

# "Bazar müdiri pulumuzu versin"

## Maşın bazarında mağazaları yanan ticarətçilər hadisəyə görə Rasim Salmanovu günahlandırırlar

**İyunun 30-da gecə saatlarında Nizami rayonunda yerləşən avtomobil ehtiyat hissələri satılan bazar ərazisində yanğın baş verib. Belə ki, bazardakı ehtiyat hissələri mağazalarının birində başlayan yanğın qısa zamanda ətrafdakı mağazalara keçib. Nəticədə onlarla obyekt yanaraq kül olub. Hadisə yerinə gələn FHN əməkdaşları çətinliklə də olsa, yanğının qarşısını ala biliblər.**







Bazarın hazırkı durumunu öyrənmək üçün musavat.com-un müxbiri yenidən adıçəkilən əraziyə baş çəkib və obyekt sahibləri ilə həmsöhbət olub.

Qeyd edək ki, səhər saatlarından bazarın qarşısında onlarla mağaza sahibi toplaşıb, onlara dəyən maddi zərərin ödənilməsini tələb ediblər. Hazırda yanğın zonasına FHN və polis əməkdaşları nəzarət edir. FHN-in əməkdaşları yanan obyektlərdə yoxlamalar aparır, yanğının başvermə səbəbini aydınlaşdırırlar. Bazarın giriş qapıları bağlanılıb, sahibkarlar içəri buraxılmır.

Zərərçəkən obyekt sahibləri musavat.com-a danışarkən, onlara külli miqdarda ziyanın dəydiyini bildirdilər. Ehtiyat hissələri satışı ilə məşğul olan sahibkar İsi Həsənov 100 min dollar məbləğində malının yandığını dedi: "Mənə dəyən zərər minimum 100 min dollardır. Çindən və Ukraynadan ehtiyat hissələri gətirirdim. İki obyektim yanaraq kül oldu. Hər ikisi də malla dolu idi. Mağazamda salamat bir şey qalmayıb. İndi bazarın müdiri mənim yanan mallarımın pulunu versin. Yanğının səbəbini dəqiq deməsələr də, qəsdən olduğunu düşünürük".

**Obyekt sahibləri yanğın hadisəsinin baş verməsində bazarın müdiri Rasim Salmanovu günahkar görürlər. Sahibkarlar bazarda heç bir təhlükəsizlik tədbirlərinin olmadığını bildirdilər:** "İcarə haqlarının aylığı minimum 1000 manatdan başlayır. Bir gün keçəndə pul yığanlar başımızın üstünü kəsdirir. Bazarda əl yumağa su belə yoxdur. Yığdığı pullardan bazarın abadlaşdırılmasına xərcləmir. Su və yaxud yanğın şiti olsaydı, bəlkə də yanğının yayılmasının qarşısını almaq mümkün olardı. Bazarda yanan obyektlərin hər birində 2 satıcı işləyirdi. Bildiyimizə görə, 40-50 obyekt yanıb. Ümumilikdə isə 1000 kvadratmetrlik ərazi yanıb. Təsəvvür edin ki, nə qədər adam işsiz qaldı. Onların çörəkpulu buradan çıxırdı".

❑ **Məğrur MƏRD**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**






## "Nar"dan "Yay söhbətləri" kampaniyası

### Bu yay 2 nömrə ilə pulsuz və limitsiz danış!

**"Nar" abunəçiləri yay ərzində "Yay söhbətləri" kampaniyasına qoşularaq, yaxınları ilə balansı düşünmədən limitsiz ünsiyyətdə ola bilərlər. Artıq hər bir abunəçi 2 sevimli "Nar" nömrəsi seçərək, onlarla bütün yay boyunca limitsiz danışmaq fürsəti əldə edir.**

**"Yay söhbətləri" - "Nar" abunəçiləri üçün yaradılmış və onların 2 sevimli "Nar" nömrə ilə pulsuz və limitsiz ünsiyyətdə olması üçün nəzərdə tutulmuş xüsusi kampaniyadır. Kampaniyadan Azərbaycan ərazisində yaşayan və bu tariflərə qoşulmuş "Nar" abunəçiləri yararlana bilərlər: "Unikal", "Saniyə", "3-ü 1-də", "Sənin 3-ün", "Yerlim", "Ölkəm", "0", "Super 0", "Bumeranq".**

**Qeyd edək ki, kampaniyadan istifadə üçün aylıq ödəniş 2.5 AZN təşkil edir. Seçilmiş nömrənin aktivləşdirilməsi isə 0.40 AZN-dir. İkinci nömrənin qoşulması pulsuzdur. Kampaniyaya qoşulmayan "Nar" nömrələr və digər operatorların nömrələri ilə səsli/görüntülü zənglərin bir dəqiqəsinin qiyməti cari tarif əsasında hesablanır.**

**Kampaniya barədə əlavə məlumatı nar.az saytından öyrənmək olar.**


## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**




## Qız üstündə düşən mübahisə bıçaqlanma ilə sona çatdı

**Bakının Sabunçu rayonunda bıçaqlanma hadisəsi baş verib. Teleqraf.com xəbər verir ki, hadisə rayonun Bakıxanov qəsəbəsi, Xasməmmədov 1 ünvanında qeydə alınıb. 32 yaşlı Əziz Məmmədovun yaşadığı məhəllədə tanışı ilə mübahisəsi düşüb. Tanışların mübahisəsi sonradan əlbəyaxa davaya çevrilib. Bu zaman Əziz Məmmədov bıçaqlanıb. Cinayəti törədən şəxs hadisə yerindən qaçıb.**

Əziz Məmmədov xəstəxanaya yerləşdirilib. Ona tibbi yardım göstərilib. İlkin məlumata görə, onların arasında mübahisə qız üstündə yaranıb.

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsinin 13-cü polis bölməsində araşdırma aparılır.

## Bakıda güclü külək əsəcək

**Azərbaycanda hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, iyulun 5-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir.**

Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-7 dərəcə düşəcək. Çaylarda sululuğun artacağı ehtimalı var.

İyulun 2-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, gecəyə doğru yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi güclənəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24, gündüz 28-32, Bakıda gecə 22-24, gündüz 29-31 dərəcə isti olacaq.

Bu gün Azərbaycanın bəzi bölgələrində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 19-24, gündüz 31-36, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq.

İyulun 2-3-də Bakı və Abşeron yarımadasında şimal-qərb küləyi güclənəcək. Havanın temperaturu 3-5 dərəcə düşəcək.

## Badamdarın su təchizatı bir neçə günlük məhdudlaşdırılır

**Kür-Bakı magistral su xəttindən ayrılan və Səbayel rayonu Badamdar qəsəbəsini içməli su ilə təmin edən 2 ədəd magistral xəttin birinin çətin relyef şəraitindən keçən hissəsində qəza baş verib və bununla əlaqədar Badamdar qəsəbəsinin bir hissəsinin su təchizatında fasilə yaranıb.**

"Azərsu"ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən "APA-Economcis"ə verilən məlumata görə, hazırda əraziyə xüsusi texnika və işçi qüvvəsi cəlb olunaraq qəzanın aradan qaldırılması istiqamətində tədbirlər görülür.

Qəza-bərpa işlərinin çətin relyef şəraitində aparılması nəzərə alınaraq 1-2 iyul tarixlərində Badamdar qəsəbəsinin bir hissəsinə içməli suyun verilməsində məhdudiyyətlər olacaq.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# “Avro-2016”da kədərlì gecə:





# sabah onlardan bìrì olmayacaq...

## Həm Almaniya, həm İtaliya çempionatın yaraşığıdır, təəssüf ki, bu gecə komandalardan biri mübarizəni dayandıracaq, amma hansı?









**Bu gecə saat 23.00-da “Avro-2016"nın 1/4 finalında Almaniya və İtaliya millilərі qarşılaşacaq. Ömründə bircə dəfə futbolla maraqlanmış birinə desən ki, axşam bu komandalar oynayacaq, mütləq evə gedəcək və oyuna baxacaq. Yəni belə oyunlar 4 ildən bir ələ düşə, ya düşməyə... Təəssüf ki, ”Avro-2016"nın finalına layiq qarşılaşma bu gecə erkən final kimi tarixə düşəcək.**

### Almaniyanın bədlik sindromu: İtaliyaya qalib gələ bilmir

FİFA-nın reytinqində Almaniya 4-cü sırada, İtaliya isə 12-ci yerdə qərarlaşıb. Almaniya və İtaliya 20 dəfə qarşı-qarşıya gəliblər. 11 oyunda italiyalılar, cəmi 5 qarşılaşmada isə almanlar üstün olublar. Bu ilin martında komandalar arasında Berlində yoldaşlıq görüşü keçirilib. Meydan sahibləri 4:1 hesabı ilə qalib gəliblər. Amma...Almaniya Avropa və dünya çempionatları çərçivəsində keçirilən bir görüşdə belə italiyalılara qalib gələ bilməyib.

**Yada salaq:** 1996-cı il Avropa çempionatında bir qrupda yer alan komandaların qarşılaşmasında hesab açılmayıb. 2006-cı il dünya çempionatının yarımfinalı. İtaliya millisi almanları əlavə vaxtda 2:0 hesabı ilə udub. 2012-ci il Avropa çempionatının Varşavada keçirilən yarımfinalında İtaliya Almaniyanı 2:1 məğlub edib. 4 il sonra komandalar bu dəfə Fransada üz-üzə gəliblər.

### 4 ildə dəyişən nə?

Almaniya son məğlubiyyətdən keçən 4 ildə dünya çempionu olub, İtaliya 4 il əvvəl Avropa çempionatının finalında ispanlara böyük hesabla məğlub olub. Almaniya Fransada Avropa çempionu olmağa da iddialıdır, italiyalılar son Avropa çempionu İspaniyanı evə göndərib, baş mükafata göz dikiblər.

İtaliya 4 il əvvəlki komanda deyil, indi daha yaxşı, nə istədiyini daha yaxşı bilən, onun üçün çarpışan bir komandadır. Heyf, hər ikisi istənilən çempionatın yaraşığıdır, təəssüf ki, bu gecə bu komandalardan biri artıq “Avro-2016"da mübarizəni dayandıracaq. Amma kim: Lövün komandasımı, Kontenin komandasımı?

Mən almanlara illərdir azarkeşlik edirəm, amma bu çempionatda əla oyun göstərən italiyalıların da tərəfini vermək olmur...

### Löv: “Bizi tam fərqli rəqib gözləyir, inanmırsızsa, İspaniyadan soruşun”

“Avro-2016" ərəfəsi Almaniya millisinin müdafiəsi ilə bağlı ciddi narahatlıqlar vardı ki, bu da səbəbsiz deyildi. ”Avro-2016" ərəfəsi keçirilən son yoldaşlıq görüşündə Almaniya öz meydanında Slovakiyaya 1:3 hesabı ilə uduzmaqla azarkeşlərdə narahatlığı artırmışdı.

Yoahim Lövün yetirmələri təsadüfdən slovaklarla 1/8 finalda qarşılaşmalı oldular və almanlar rəqiblərini 3:0 hesabı ilə məğlub edərək evə göndərdilər. Fransa çempionatında 4 oyun keçirən almanlar hələ də Noyerin qapısını toxunulmaz saxlayıblar. Bu, 1978-ci ildə dünya çempionatdan sonra Almaniya millisinin fəxr edə biləcəyi daha bir nəticədir.

Löv Ukrayna ilə ilk oyunda mərkəz müdafiəçisi rolunda Şkodran Mustafini görəvləndirdi. O isə qol vurdu. Növbəti oyunda Mustafini zədəsi yenicə sağalmış Hummels əvəz etdi. Çoxları zədəli oyunçunun meydana buraxılmasını tez hesab etsə də, Hummels Polşa ilə oyunda verilmiş görəvi yerinə yetirdi. Onun xüsusilə gələcək klub yoldaşı Jerom Boatenqlə bir-birini əla başa düşməsi nəzərdən qaçmadı. **“Onlar özlərini müdafiədə və topa nəzarətdə yaxşı göstərdilər. Qapımıza tərəf gedən əksər top uğrunda mübarizədə onlar qalib gəldilər”** deyə, Löv bu iki oyunçu haqda deyib.

Almaniya müdafiəsinin uğuru təkcə müdafiə xəttinin və Noyerin bacarığı deyil. Müdafiənin qurulmasında Almaniya millisi İspaniya futbolunun fəlsəfəsinə söykənir: **“Əgər top bizdədirsə, demək rəqib qol vurmayacaq”.** Almanlar topu itirən kimi onu yenidən qazanmaq üçün mübarizəyə başlayırlar. Təsadüfi deyil ki, “Avro-2016"da Almaniya millisi topa nəzarət edən ən yaxşı komandadır-64%.

Belə keçilməz müdafiəyə görə Almaniyanı bugünkü rəqibləri İtaliya ilə müqayisə edirlər. **Hummels** bu bənzətməni kompliment kimi qəbul edir: **“İtaliya daha dərin ”katenaço" tətbiq edir. Bizim müdafiə xətti pressinq tətbiq etməklə rəqibi cərimə meydançamızdan uzaqlaşdırmağı hədəfləyib".**

Təcrübəli müdafiəçi Almaniya komandasında əsas ağırlığın yarımmüdafiə və hücum xəttinin üzərinə düşməsi barədə deyilənləri bölüşür: **“Bizim müdafiə xətti həm də ona görə etibarlıdır ki, oyunçuların fərdi ustalıq bacarığı yüksəkdir. Amma əsas odur ki, bütün komanda stabil oynasın. Əgər yarımmüdafiə rəqibə oynamaq üçün meydan verirsə, müdafiə xəttini xoşagəlməz hallara gözləyir. Löv deyib ki, Slovakiya ilə oyunda komanda pressinq tətbiq etməklə rəqibi uzaq ötürmələrlə oynamağa vadar edib. ”Amma bizi indi tam fərqli bir rəqib gözləyir. İnamırsızsa, İspaniyadan soruşun. Italiyanin oyunu təsirlidir. Bizim aramızda açıq və maraqlı oyun olacaq".**

### Dahi Kontenin “katenaço”su...

İtaliyanın İspaniyaya təkcə güclü müdafiəsi ilə deyil, həm də komanda ruhu və məşqçinin dahi taktikası hesabına qalib gəldiyini hamı etiraf edir. İtaliyanın “katenaço” taktikası haqda söz düşəndə hamı ağzını büzürdü. “Katenaço”nun bizim dilə tərcüməsi təxminən “bağlı qıfıl” deməkdir. Əvvəl bu yalnız müdafiəyə aid sistem idisə, indi İtaliyanın dahi məşqçisi adlandırılan Antonio Konte millinin bütün oyununu “bağlı qıfıl” üzərində qurur. Bu sistemi Konte hələ 2011-ci ildə “Yuventus”da baş məşqçi işləyəndə uğurla tətbiq edib. Bu həm də İtaliya müdafiəsinin üç siması - Andrea Barçali, Leonardo Bonuççi və Corcio Kellini *(üçü də “Yuventus”)* üzərində qurulmuş oyun sistemidir. Amma bu yalnız üç müdafiəçinin deyil, bütün komandanın oyunudur. Kellini İspaniyanın qapısının ağzında peyda olub qol vura bilər. Eləcə də hücum xəttindəki Eder və Cakkerini müdafiədə “otura” bilərlər. Bu sistemdə dəyişikliklər o qədər ani baş verir ki, rəqib komanda kimin-kimə qarşı oynadığına alışa bilmir. İdman mütəxəssisləri deyirlər ki, İtaliya İspaniya ilə oyunda tacsız evə göndərdikləri keçmiş çempionları bir neçə dəfə məhz bu cür dolaşdırıblar. Müdafiə futbolu oynadıqlarına görə qınanan İtaliya millisi bu çempionatda, xüsusilə də ispanlara qarşı oyunda güclü pressinqi ilə də diqqət çəkdi. Pressinq üçünsə əla fiziki göstəricilər lazımdır ki, İtaliya millisində bu məsələ də həll olunub. Təsadüfi deyil ki, qrup mərhələsində bütün iştirakçılar içərisində meydanda ən çox qaçan oyunçu Parolo olub: 12 kilometr, 570 metr. İspaniya ilə oyunda isə başqa bir italiyalı yarımmüdafiəçi Cakkerini bu rekordu təzələyib: 12 km, 970 metr!

Qaldı “katenaço”nun dirijoru-Konte. O, oyun başlayandan sonadək meydanın məşqçiyə aid hissəsində bir an belə dayanmır. Əlini-qolunu ölçür, daima nələrsə çığırır, göstəriş verir, qəzəblənir. Konte 90 dəqiqə sanki gözəl tamaşaya dirijorluq edir. Çempionatda onun kimi emosional, dayanmadan danışan və bağıran, nəhayət, qol vuranda onun kimi sevinən ikinci bir məşqçi yoxdur. Bu gecə həm də onların duelidir: alman maşınını ən güclü edən Löv və İtaliya futbolunda inqilabi dəyişikliklər edən Konte...

**Təəssüf ki, sabah bu məşqçilərdən biri Fransanı komandası ilə birgə tərk edəcək...Heyf.**

**Ən sonda. Görüşü qalmaqallı hakim kimi tanınan Viktor Kaşşai idarə edəcək.**

❑ **Nazìm SABÌROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 144 (6465) 2 iyul 2016



## Bələdiyyə sədri timsahla evləndi

Meksikada əsas qazancı balıqçılıq olan bir qəsəbədə bələdiyyə sədri timsahla... evlənib. Bu izdivacın səbəbi isə onun qəsəbəyə uğur gətirəcəyi inamıdır. San Pedro Huamelula qəsəbəsinin sədri mediaya açıqlamasında deyib ki, hazırda qəsəbədə ov mövsümüdür və bu evlilik qəsəbəyə şans gətirəcək. Simvolik nikahın ardınca bələdiyyə sədri "gəlin"i də öpüb və bunun çox bərəkətli olacağını deyib.

# Duş almaq insanı stresdən çıxarır

Türkiyəli psixoloq, professor Gülden Güvenç, stresdən uzaq olmaq üçün duş almağın faydalarından danışıb. Onun sözlərinə görə, imtahan verənlər də stress və depressiyadan uzaqlaşmaq üçün duş almağı seçim edə bilər. Bu sadə prosedur imtahan həyəcanını azaltmağa kömək edir.

Duş alarkən diqqət yetirilməsi lazım olan suyun istiliyi və duşda keçirilən müddətdir. Çox isti su dəridə tarazlığı pozaraq, bədəndəki təbii yağın yox olmasına səbəb olur. Uzun müddət suyun altında qalmaq isə dəri sağlamlığına mənfi təsir göstərə bilər. Bu baxımdan çox duşda olmamaq və duşdan sonra istəyə uyğun bitki mənşəli nəmləndiricilərdən istifadə etmək lazımdır. Dəri sağlamlığı üçün çirkli və ya küləkli yerlərdə olmamaq məsləhətdir.

Onu da qeyd etmək lazımdır ki, günəş şüaları, xüsusilə bədəndə saxlanılan D vitamininin sintezləşməsində və sümüklərin inkişafında əhəmiyyətli rol oynayır.






## Ən çox yalanı menecerlər danışır

Rusiyadakı hər kampaniyadakı ikinci əməkdaş yalan danışmağa meyllidir. Onlar bunu peşə fəaliyyətləri zaman edirlər. Onların 4 faizi bunu daim edir, 29 faiz isə zaman-zaman yalan silahına əl atır. Daha çox ticarət sektorunda çalışanlar yalan danışırlar. Sorğu çərçivəsində 3439 nəfər kampaniya işçisinin rəyi soruşulub. Məlum olub ki, top menecerlər ən böyük yalançılar siyahısındadır. Onların 65 faizi mahir yalançıdır. Üçüncü yeri kampaniyadakı hüquqşünaslar tutub. Onların 63 faizi iş prosesində yalandan istifadə etdiklərini boyunlarına alıb. Hamıdan az kampaniyadakı cavan əməkdaşlar, həkimlər, mühasib və maliyyəçilər yalan danışmağa meyl edirlər.

Rəyi soruşulanların 68 faizi iddia edir ki, onların yalanlarının üstü əsasən açılmır. Yalanın qurbanları isə daha çox kampaniya rəhbərliyi (53 faiz) və müştərilərlə həmkarlar (43 faiz) olur.

# Disneyda də selfi çubuğu qadağan edildi

Disney şirkəti əyləncə parklarında selfi çubuğunu qadağan edib. Maraqlıdır ki, bu günə qədər parklardakı maşınlara minəndə onsuz da selfi çubuğuna icazə verilmirdi. Amma son olaraq ziyarətçilərdən gələndə özləri ilə selfi çubuğu gətirməmələri xahiş edilib. Qadağa gələn həftə Disney parklarında qüvvəyə minəcək. Paris və Honq-Konqda da bu qadağa tətbiq olunacaq. Disney təmsilçisi BBC-yə açıqlamasında bildirib ki, bu çubuqlar həm ziyarətçilərə, həm də park işçilərinə təhlükə yaradır. Çubuqlar şəkil çəkmək üçün uzadıldığı zaman insanlara dəyərək onları yaralaya bilər. Bu da şirkətin açıqlamasında qeyd olunub.

Xatırladaq ki, bundan öncə Nyu Yorkda muzeyə gələnlər "selfie" çəkərkən tarixi əsərlərə zərər verdiyi üçün selfi çubuqları Nyu Yorkda qadağan edilib. Bu qadağalara daha əvvəl bənzər "selfie" çubuqlarıyla tarixi əsərlərə verilən zərərlər səbəb kimi göstərilir.





## Xoruzun iki buynuzu çıxdı

Türkiyənin Aydın şəhərində 31 yaşındakı Dəniz İğci adlı gəncə İstanbulda yaşayan dostu tərəfindən pay olaraq göndərilən yumurtalardan biri şok yaradıb. Buna səbəb yumurtadan çıxan xoruzun görüntüsüdür. Belə ki, xoruzun pipiyi cüt buynuza bənzəyir. Sultan cinsi olan xoruzların adətən bir buynuzu olur. İğci bu xoruzla bağlı internet vasitəsilə hollandiyalı professora məktub yazıb. Sonunda ona bu olayın normal olmadığını, bundan əvvəl belə bir xoruzla qarşılaşmadığını deyib. Gənc bildirib ki, hobbi olaraq bağçasında dəvə, göyərçin, ördək, qaz, inək, hinduşka və at saxlayır: "Dostumun göndərdiyi yumurtlardan çıxan xoruzların heç birində bir dənə belə buynuz çıxmadığı halda, bu xoruz böyüdükcə iki ədəd buynuza bənzər pipik çıxdı. İndi hamı xoruzu görmək üçün mənim bağçama gəlir. Hələ elm dünyası bu xoruzun sirrini tapa bilmir".

## Qoroskop




**QOÇ** - Ətafınızda baş verən hadisələrin ürəyinizcə getməməsi ümumi ovqatınızı aşağı salmaqdadır. Lakin ruhdan düşməyə heç bir əsas yoxdur. Sadəcə, bir qədər səbr edib, yeni perspektivə hazırlaşmaq lazımdır.

**BUĞA** - Yaxşı olar ki, günün əsas hissəsini ailə-sevgi məsələlərinə həsr edəsiniz. Başqalarını özünüzdən incik salmayın. Mənasız məsələlərə görə risk etməyə lüzum yoxdur.

**ƏKİZLƏR** - Sürprizlərlə dolu bir gün yaşayacaqsınız. Çox güman ki, bir neçə sevindirici hadisənin şahidinə çevriləcəksiniz. Nahar ərəfəsində isə müqəddəs ziyarətgahlarımızdan birinə baş çəkin.

**XƏRÇƏNG** - Hiss olunur ki, maddi durumunuz ürəkaçan deyil. Bu səbəbdən də ümumi ovqatınız aşağı səviyyədədir. Lakin ulduzlar axşama doğru kisənizdə dəyişiklik olacağına eyham edir.

**ŞİR** - Şəxsi işlərinizdə müsbət dönüş baş qaldırmaqdadır. Özünüzü tənzimləməyə çalışın. Müvəffəqiyyət başınızı gicəllәndirməməlidir. Vaxtilə həyatınızda rol oynayan insanları yada salın.

**QIZ** - Qarşınızda olduqca məhsuldar bir gün durur. Qərarlarınızda qəti olun. Aldığınız təkliflər müsbət nəticələr verəcək. Axşam uzaq olmayan ünvanlara qonaq gedə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 15-ə qədər mübahisəli situasiyalara cəlb olunma ehtimalınız var. Özünüzü ələ almağı bacarsanız, sonrakı saatlarda şəxsi işlərinizdə müsbət dönüş baş qaldıracaq. Qohumlara sayğı göstərin.

**ƏQRƏB** - Digərləri ilə müqayisədə bu gün daha çox sizin bürcünüz başıdinc yaşayacaq. Əsas enerjinizi məhəbbətə həsr edin ki, bu proses uzun sürsün. Sövdələşmələrdə təşəbbüskarlığı əldən verməyin.

**OXATAN** - Bir qədər gərgin ərəfədir. Lazımsız məqamlarda, günahsız adamlarla mübahisələrə girişməyin. Əks təqdirdə, özünüzə qarşı rəğbəti itirə, həmçinin sevgidə təklənə bilərsiniz. Səfərə çıxmaq yaxşıdır.

**OĞLAQ** - Göy qübbəsi maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Belə ki, nahar ərəfəsində varlanma ehtimalınız var. Lakin boş məsrəflərə xərc çəkməkdən yayınmalı, "yamangünlük" saxlamalısınız.

**SUTÖKƏN** - Həddindən ziyadə yorğun və gərgin gündür. Qarşınızda duran vəzifələrin öhdəsindən gələcəyinizə inamsızsınız. Amma bədbinləşməyə dəyməz. Çünki gözəl günlər yaxınlaşmaqdadır.

**BALIQLAR** - İyul ayının ən düşərli günlərindən birini yaşayacaqsınız. Hər mənada uğurlu məqamlarla üzləşəcəksiniz. Yeni təkliflər, xoş xəbərlər, maddi irəliləyiş - bir sözlə, ətrafda hər şey gözəl olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşağına bu adı qoy, 10 min dollar qazan



ABŞ ərazisində 159 şöbəsi olan "BJ's Restaurant & Brewhouse" restoranı menyusuna daxil etdiyi yeni bir yeməyi reklam etmək üçün maraqlı bir üsula baş vurub. Restoran rəhbərliyi elan verib ki, menyusuna "Quinoa" adlı yemək əlavə edib və bu adı uşağına qoyan ilk cütlüyə 10 min dollar mükafat verəcək. Qalib gələn cütlüyü müəyyənləşdirmək üçün şirkət uşağın doğum şəhadətnaməsini və valideynlərinin də sənədlərini tələb edir. Şirkətin daha bir aksiyası isə sosial şəbəkədə başlanıb. Onlar facebookda adını "Quinoa" olaraq dəyişən insanlara da 10 dollarlıq çek verirlər. Artıq kampaniya xeyli diqqət çəkib. Şirkət rəsmiləri bildirib ki, Amerikada bu adda uşaq yoxdur və bu kampaniya yeni bir dəbin başlanmasına səbəb olacaq.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.